## Son döyüşlərdə şəhid olmuş şəxslərin kredit borcları silinib



13

Səs
№ 170 (6611) 20 sentyabr 2022-ci il. Qiymətі 60 qəpik

# "Azərbaycan həmişə İslam həmrəyliyinin gücləndirilməsinə mühüm töhfələr verib"

Prezident İlham Əliyev Küveytin Azərbaycanda yeni təyin olunan səfirinin etimadnaməsini qəbul edib



2

# Seçim etmək üçün Ermənistanın nəinki vaxtı, heç şansı da qalmayıb...



4

## Təxribatçı Nensi Pelosiyan



10

## Ailə - həvəs, yoxsa məsuliyyət?



12

## Mənzil alarkən ən çox hansı səhvlərə yol veririk?



7

# "Əsrin müqaviləsi"ndən ötən 28 il

3



## Siyasi möhtəkirlər yığnağı: rəzillik və murdarlıq bataqlığında məhvin reallığı



8

## Erməni terrorizminin daha bir ünvanı: Xəlifəliçay



11

# "Azərbaycan həmişə İslam həmrəyliyinin gücləndirilməsinə mühüm töhfələr verib"

## Prezident İlham Əliyev Küveytin Azərbaycanda yeni təyin olunan səfirinin etimadnaməsini qəbul edib



**Azərbaycan Prezidenti İlham Əliyev dünən Küveyt Dövlətinin ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Abdullah Mohamed Abdullah Almauidinin etimadnaməsini qəbul edib. Səfir Abdullah Mohamed Abdullah Almauidi etimadnaməsini dövlətimizin başçısına təqdim edib. Daha sonra Prezident İlham Əliyev səfirlə söhbət edib.**

Dövlətimizin başçısı səfirin diplomatik fəaliyyəti dövründə əlaqələrimizin inkişafına müsbət təsir göstərəcəyinə ümidvar olduğunu bildirdi. Azərbaycan-Küveyt münasibətlərinin yüksək səviyyədə olduğunu vurğulayan Prezident İlham Əliyev Küveytə səfərini məmnunluqla xatırladı, siyasi əlaqələrlə yanaşı, iqtisadiyyat, energetika və digər sahələrdə də əməkdaşlığın inkişafı üçün yaxşı imkanların olduğunu qeyd etdi. Biznes dairələri arasında münasibətlərin yaradılmasının və qarşılıqlı səfərlərin təşkil olunmasının ticarət dövriyyəsinin artırılmasına xidmət edəcəyini vurğulayan Prezident İlham Əliyev pandemiyadan əvvəl Azərbaycana çoxsaylı küveytli turistin səfər etdiyini diqqətə çatdırdı. Dövlətimizin başçısı bu rəqəmin daha da artacağına əminliyini bildirdi.

Azərbaycanın və Küveytin beynəlxalq təşkilatlarda, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, OPEC+ çərçivəsində əməkdaşlığının vacibliyini qeyd edən Prezident İlham Əliyev işğal dövründə Küveytin Azərbaycanın ərazi bütövlüyünü daim dəstəklədiyini vurğuladı. Dövlətimizin başçısı Azərbaycanın həmişə İslam həmrəyliyinin gücləndirilməsinə mühüm töhfələr verdiyini qeyd etdi.

Prezident İlham Əliyev Ermənistanın işğal dövründə ərazilərimizdə vandalizm aktları törətdiyini vurğulayaraq, 67 məsciddən 65-nin dağıdıldığını qeyd etdi. Dövlətimizin başçısı Azərbaycanın işğaldan azad olunan ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirdiyini, bu prosesdə Küveyt şirkətlərinin də iştirakının mümkünlüyünü vurğuladı.

Azərbaycan Prezidenti müharibənin başa çatmasından iki ilə yaxın müddət ötməsinə baxmayaraq, Ermənistan tərəfindən təxribatların davam etdirildiyini dedi. Prezident İlham Əliyev Ermənistanın sərhəddə törətdiyi genişmiqyaslı təxribatın sülh prosesinə mane olmaq məqsədi daşıdığını qeyd etdi.

Səfir Abdullah Mohamed Abdullah Almauidi Küveyt Dövlətinin Əmiri Nəvaf əl-Əhməd əl-Cabir əl-Sabahın salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Küveyt Dövlətinin Əmirinə çatdırmağı xahiş etdi.

Səfir dövlətlərarası əlaqələrimizin yüksək səviyyəsini vurğulayaraq, ölkələrimiz arasında tarixi və ənənəvi dostluq münasibətlərinin olduğunu qeyd etdi. Abdullah Mohamed Abdullah Almauidi ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin genişləndirilməsi üçün hökumətlərarası komissiyanın fəaliyyətinin genişləndirilməsinin vacibliyini bildirdi. Diplomat ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq etdiyini vurğuladı, ikitərəfli əlaqələrin daha da inkişafı üçün səylərini əsirgəməyəcəyini dedi.



# "Azərbaycan Macarıstan üçün vacib tərəfdaşdır"

## Prezident İlham Əliyev Macarıstanın Azərbaycanda yeni təyin olunan səfirinin etimadnaməsini qəbul edib

**Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 19-da Macarıstanın ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Tamaş Yojef Tormanın etimadnaməsini qəbul edib.**

Səfir Tamaş Yojef Torma etimadnaməsini dövlətimizin başçısına təqdim edib, daha sonra Prezident İlham Əliyev səfirlə söhbət edib. Dövlətimizin başçısı Azərbaycan ilə Macarıstan arasında çox yaxşı siyasi əlaqələrin olduğunu, ölkələrimizin iqtisadiyyat, ticarət, enerji və digər sahələrdə sıx əməkdaşlıq etdiyini bildirib. Prezident İlham Əliyev Macarıstanın Avropa İttifaqında Azərbaycanın ən vacib tərəfdaşlarından biri olduğunu qeyd etdi və səfirə fəaliyyətində uğurlar arzulayıb.

Səfir Tamaş Yojef Torma Macarıstanın Baş naziri Viktor Orbanın salamlarını dövlətimizin başçısına çatdırıb, Prezident İlham Əliyev isə salamlara görə minnətdarlığını bildirib, onun da salamlarını Macarıstanın Baş nazirinə çatdırmağı xahiş edib.

Azərbaycan ilə Macarıstan arasındakı əlaqələrin dostluğa və qarşılıqlı hörmətə əsaslandığını vurğulayan səfir bildirib ki, bu, strateji tərəfdaşlıq zəminində olan münasibətlərdir. Azərbaycanın Macarıstan üçün vacib tərəfdaş olduğunu vurğulayan Tamaş Yojef Torma ölkəsinin enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycanın mühüm rol oynadığını bildirib. Diplomat vurğulayıb ki, Azərbaycan mühüm geosiyasi mövqedə yerləşir. Bu il biz ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd edirik. Səfir diplomatik fəaliyyəti dövründə ölkələrimiz arasında əlaqələrin inkişafı istiqamətində səylərini əsirməyəcəyini bildirdi.

# "Kommersant": Xanım Pelosinin səfərindən sonra amerikalı diplomatlar yenə yanğını söndürməli olacaqlar

**Nensi Pelosi ola bilsin öz adından, bəlkə də Konqresin adından danışırdı, amma Vaşinqtonda xarici siyasəti Dövlət Departamenti və Prezident müəyyən edir, onlar isə bütün bu müddət ərzində bitərəf qalmağa çalışaraq, həm Yerevanı, həm də Bakını eskalasiyaya son qoymağa çağırıblar. AZƏRTAC xəbər verir ki, bu fikirlər Rusiyada çıxan "Kommersant" nəşrində ABŞ Nümayəndələr Palatasının spikerinin Ermənistana səfərinə həsr edilmiş məqalədə öz əksini tapıb.**



Коммерсантъ 20 ИДЕЙ

Эффект Пелоси

Спикер Палаты представителей США встала на сторону Армении в конфликте с Азербайджаном и снова создала трудности Вашингтону

Спикер Палаты представителей США Нэнси Пелоси от имени Конгресса осудила «смертоносное нападение Азербайджана» на Армению и рассказала о планах американских законодателей принять соответствующую резолюцию. Визит в Ереван делегации США во главе с третьим лицом в американской иерархии власти и выраженная ею поддержка Армении в ее конфликте с Азербайджаном вызвали бурю восторга в стране, разочарованной отсутствием столь же однозначной реакции на конфликт со стороны союзников по ОДКБ.

КЛУБНЫЙ ДОМ НА НАБЕРЕЖНОЙ

Opus

OPUS-HOME.RU

Nəşr xatırladır ki, Nensi Pelosinin özünün sözlərinə görə, o, Yerevana vasitəçi kimi deyil, dost kimi gəlib və "bütün ABŞ Konqresinin" fikrini ifadə edir. Məqalədə deyilir: "Amma Vaşinqtonda xarici siyasəti Dövlət Departamenti və Prezident müəyyən edir, onlar isə bütün bu müddət ərzində bitərəf qalmağa çalışaraq, həm Yerevanı, həm də Bakını eskalasiyaya son qoymağa çağırıblar".

Məqalə müəllifləri onu da qeyd ediblər ki, ABŞ Nümayəndələr Palatasının spikeri öz pencəyinin yaxasına "erməni soyqırımının qurbanları" xatirəsinin rəmzi kimi yaddaş çiçəyi şəklində sancaq taxıb. Nəşrdə deyilir: "Əlbəttə, bunu Yerevanda qiymətləndiriblər, amma yəqin ki, Türkiyədə də yadda saxlayıblar".

"Kommersant"dakı məqalədə bu da xatırladılır ki, Nensi Pelosi erməni jurnalistlərin ona ünvanlanmış "Ermənistan KTMT-dən çıxacağı halda Vaşinqton Yerevana alternativ təhlükəsizlik sistemi təklif edə bilərmi?" sualına özü cavab verməkdən əvəzinə mikrofonu energetika və kommersiya məsələləri komitəsinin sədri Frenk Palloneyə verib. Pallone hər hansı vədlər verməkdən və ya çağırışlar etməkdən boyun qaçıraraq xatırladıb ki, Ermənistan Rusiya ilə bərabər Təhlükəsizlik Təşkilatının üzvüdür və onlar özləri başa düşmək istəyirlər ki, ABŞ bu güc strukturuna müraciət etmədən nə edə bilər. Nəşr oxucuları Pelosinin səfərinə Azərbaycan Xarici İşlər Nazirliyinin reaksiyası ilə də tanış edib. Azərbaycana ünvanlanmış əsassız və ədalətsiz ittihamları qəbuledilməz adlandıran Azərbaycan xarici siyasət idarəsi ABŞ Nümayəndələr Palatasının spikerinin bəyanatı ilə əlaqədar dərindən təəssüfləndiyini bildirib və vurğulayıb ki, bu bəyanat regionda vəziyyəti təhrif edir.

Materialda deyilir: "Çox ehtimal ki, bu yaxınlarda baş vermiş Tayvan epopeyası ilə bağlı halda olduğu kimi, xanım Pelosi Ermənistanı tərk edəndən sonra amerikalı diplomatlar yenə yanğını söndürməli və izah etməli olacaqlar ki, Nümayəndələr Palatasının spikeri öz fikrini bildirmək hüququna malikdir, çünki demokratiyalar belə işləyir. Lakin ABŞ Ermənistan-Azərbaycan münaqişəsində rəsmi vasitəçilərdən biri olduğuna görə, sülhyaratma baxımından Nensi Pelosinin belə çıxışları yəqin ki, ABŞ-ın zərərinə olacaq".

# Beycan İlyas: "Azərbaycan işğalçı Ermənistan və arxasında dayanan zalımlar qarşısında əsla yalnız deyil"

Makedoniya Türk Demokratik Partiyasının sədri, Şimali Makedoniya Məclisinin üzvü Beycan İlyas Yeni Azərbaycan Partiyası Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqova Ermənistan silahlı qüvvələrinin dövlət sərhədində törətdiyi genişmiqyaslı təxribat nəticəsində hərbi qulluqçularımızın şəhid olması ilə əlaqədar başsağlığı məktubu ünvanlayıb.

Bu barədə AZƏRTAC-a Yeni Azərbaycan Partiyasının mətbuat xidmətindən məlumat verilib. Məktubda deyilir: "Sizi səmimi-qəlbdən salamlayır, ötən günlərdə Azərbaycan-Ermənistan sərhədində baş verən toqquşmalarda şəhid olan Azərbaycan Ordusunun qəhrəman əsgərlərinə Allahdan rəhmət, yaralılara şəfa, qardaş Azərbaycan xalqına başsağlığı verir və səbir diləyirik. Allah yardımçınız olsun.

Makedoniya türkləri can Azərbaycanın vətən torpağı Qarabağın tamamilə işğaldan azad olunması üçün apardığı haqlı mübarizədə soydaş Azərbaycan xalqının yanındadır. Azərbaycan işğalçı Ermənistan və arxasında dayanan zalımlar qarşısında əsla yalnız deyil. Allah yardımçınız olsun. Eyni qanı daşıdığımız Azərbaycandakı bütün soydaşlarımızı salamlayır, möhkəm cansağlığı diləyirəm".

# “Əsrin müqaviləsi”ndən ötən 28 il





**“Əsrin müqaviləsi”ndən 28 il ötür. Bu müqavilənin imzalanması və onun gerçəkləşməsi müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən düzgün neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür. Bu müqavilə ən önəmli və həyati dəyərə malik beynəlxalq müqavilələrdən birincisi kimi tarixdə yer aldı.**

Azərbaycan müstəqillik əldə etdikdən sonra bir sıra beynəlxalq müqavilələr imzalanmışdı, amma ”Əsrin müqaviləsi”nin imzalanması, məhz Azərbaycan iqtisadiyyatını irəliyə doğru aparan amillərdən birinə çevrildi. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində qeyd etdiyi kimi, ”Bu gün Azərbaycanın uğurlu inkişafı timsalında biz məhz o illərdə atılmış addımların təzahürünü görürük. Görürük ki, ulu öndər Heydər Əliyevin bütün başqa xidmətləri ilə bərabər, bu sahədə xalq qarşısında, dövlət qarşısında göstərdiyi xidmətlər ən yüksək qiymətə layiqdir. Biz - onun davamçıları bu sahədə öz işlərimizi davam etdiririk”. 1994-cü il sentyabrın 20-də Bakıdakı ”Gülüstan” sarayında imzalanmış ”Əsrin müqaviləsi” Azərbaycanın dinamik inkişaf yolunu müəyyən etdi. Müqavilə müasir və qüdrətli Azərbaycanın təməlini möhkəmlətdi, ölkənin bu gününün və gələcəyinin uğurlu inkişafına yol açdı. 1994-cü il sentyabrın 20-də Bakıda Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə dünyanın 11 aparıcı neft şirkəti arasında ”Azəri”, ”Çıraq” və ”Günəşli” yataqlarının birgə işlənilməsi və hasilatın pay bölgüsü ilə bağlı ”Əsrin müqaviləsi” imzalandı. Daha sonra dünyanın 19 ölkəsini təmsil edən 41 neft şirkəti ilə daha 26 saziş imzalandı. ”Əsrin müqaviləsi” adlandırılan bu saziş müstəqil Azərbaycanın neft salnaməsinə əbədi həkk olundu və böyük uğurların qazanılmasında müstəsnalıq təşkil etdi.

## ”ƏSRİN MÜQAVİLƏSİ” AZƏRBAYCANI İNVESTİSİYALARA AÇIQ BİR DÖVLƏTƏ ÇEVİRDİ

Müqavilə müasir Azərbaycanın inkişaf perspektivləri baxımından, o cümlədən, iqtisadiyyatın dirçəldilməsi və şaxələndirilməsi prosesində olduqca mühüm rola malikdir. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, ”Əsrin kontraktı”nın imzalanması tarixi hadisədir: ”Bu kontraktın faydasını bu gün Azərbaycan dövləti, Azərbaycan xalqı görür. Təsəvvür etmək çətindir ki, əgər ”Əsrin kontraktı” imzalanmasaydı, Azərbaycan o vaxt nəyin hesabına öz iqtisadi inkişafını təmin edə bilərdi. Biz nəyin hesabına uğurla inkişaf edə bilərdik. ”Əsrin kontraktı”nın bizim müstəqil tariximizdə xüsusi yeri, xüsusi rolu var”. 2001-ci ildə Ulu Öndər Heydər Əliyevin Sərəncamı ilə sentyabrın 20-si ”Neftçilər Günü” kimi elan olunub. Hər il neftçilər öz peşə bayramlarını qeyd edirlər. Bu gün neftçilər üçün ikiqat bayrama çevrilib. Bu günü neftçilər həm ”Əsrin müqaviləsi”ni, həm də peşə bayramı günü kimi qeyd edirlər. Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasətinə əsaslanan strategiyanın möhtəşəm nəticələrinin şahidiyik. ”Əsrin müqaviləsi” ölkədə misli görünməmiş bir iqtisadi inkişafa yol açdı və Azərbaycanı müasir enerji mərkəzinə çevirdi.

Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində, ”Əsrin müqaviləsi” Azərbaycanı investisiyalara açıq bir dövlətə çevirdi və xarici investorlar, bu layihə təsdiqini tapdıqdan sonra, sərbəst şəkildə ölkəmizə investisiya yatırmağa başladılar. 1994-cü ildən bu günə qədər ölkəmizə milyardlarla dollar həcmində xarici investisiyalar yatırıldı, neft sektorunun inkişafı isə, özlüyündə, qeyri-neft sektorunun da inkişafını təmin etdi. Digər tərəfdən, bu, iqtisadi inkişafın təməlinin qurulmasına imkan yaratdı. Məhz bu layihədən əldə olunan gəlir sayəsində, Azərbaycan vətəndaşlarının sosial təminatının yüksəldilməsi istiqamətində əsaslı addımlar atıldı və müxtəlif layihələr həyata keçirildi. Ölkədə sabitliyin yaranması isə yeniyeni sahələr üzrə investisiyaların Azərbaycana cəlb olunmasına köməklik göstərdi. Bu da, nəticə etibarı ilə, ölkəmizdə regionların sosial-iqtisadi inkişafını və digər mühüm aspektləri özündə ehtiva edən genişmiqyaslı proqramların və konsepsiyaların reallaşmasına şərait yaratdı. ”Əsrin müqaviləsi”nə qədər Azərbaycan kifayət qədər yol gedib. Azərbaycan dövlətinin təbii sərvətlərinə sahib çıxmaq üçün atdığı addımlar ”Əsrin müqaviləsi”ndə öz əksini tapıb. Dünyada təbii sərvətlərlə zəngin olan və onu dünya bazarına çıxaran dövlətlər çoxdur. Ancaq onlardan heç də hamısı uğur qazanmayıb. Uzaqgörən siyasətçi Ulu Öndər Heydər Əliyev ”Əsrin müqaviləsi”ni imzalamaqla, yalnız Azərbaycan üçün deyil, region və Avropa üçün bir sıra problemləri həll etmiş oldu. Bu müqavilənin imzalanması güclü Azərbaycanın əsasını qoydu. Təməli Ulu Öndər Heydər Əliyev tərəfindən formalaşdırılan enerji siyasəti dünyanın ilk neft hasilatçılarından olan Azərbaycanı beynəlxalq enerji bazarlarında birbaşa iştirakçıya çevirdi. Nəticədə, enerji resursları ölkəmiz üçün yalnız dövlət gəlirlərinin artması mənbəyi deyil, həmçinin, ciddi geosiyasi alətə çevrildi. Azərbaycan, artıq dünya enerji təhlükəsizliyinə töhfə vermiş ölkələrdən sayılır. Qlobal arenada enerji təzhizatçısı kimi Azərbaycanın müstəqil beynəlxalq siyasət həyata keçirmə imkanları möhkəmləndi. Azərbaycanın neft sənayesinin, ümumiyyətlə, iqtisadiyyatının inkişafında yeni dövrün əsasını qoyan ”Əsrin müqaviləsi”nin imzalanması ilə başlamış iş XXI əsrdə Azərbaycanın dinamik inkişaf yolunu müəyyən etdi. ”Kontraktın qüvvəyə minməsi Azərbaycanı yeni inkişaf yoluna çıxardı və bu gün ”Əsrin kontraktı” bizim neft sənayemizin inkişafında öz rolunu oynayır”, - deyə Azərbaycan Prezidenti bildirib. Dövlət başçısının fəaliyyəti nəticəsində, neft və qazın bir neçə kəmər vasitəsi ilə Azərbaycandan Avropaya çıxarılması təmin edilib. Azərbaycan üçün nə vaxtsa hər hansı bir kəmərdə təhlükə yaransa, hansısa bir hadisə baş verərsə, digər kəmər vasitəsi ilə təbii sərvətini xarici dövlətə çıxara biləcək. ”Bakı-Tbilisi-Ceyhan” Əsas İxrac Boru Kəməri dünyada bənzəri olmayan mühəndis qurğusudur. Bu layihə Şərq-Qərb enerji dəhlizinin əsasını təşkil edir. Ümummilli Lider Heydər Əliyevin məqsədyönlü və ardıcıl şəkildə həyata keçirdiyi qlobal, genişmiqyaslı və çoxşaxəli iqtisadi siyasəti nəticəsində, bu gün neft Azərbaycan xalqının rifahına xidmət edərək, ölkəmizin siyasi müstəqilliyinin, iqtisadi tərəqqisinin, insanlarımızın rifahının təmin edilməsinə yönəldilib. Bu müqavilə makroiqtisadi və sosial göstəricilərə öz təsirini göstərib. Tarixi reallıqlara, statistik göstəricilərə əsaslanaraq, deyə bilərik ki, neft gəlirləri nəticəsində, baş vermiş iqtisadi sıçrayış əhalinin gəlirlərinin artımasına, yoxsulluğun azaldılmasına və başqa sahələrdə irəliləyişə səbəb oldu. Ölkədə aztəminatlı ailələrin sosial təminatı gücləndirilib, təhsil və səhiyyə sektorlarında, xüsusilə də, infrastrukturun yenilənməsi, xidmət səviyyəsinin artırılması və bu sahələrdə çalışanların əmək haqlarının artırılmasına diqqət yetirilib. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan öz neft kapitalını insan kapitalına çevirir.

## “ƏSRİN MÜQAVİLƏSİNDƏN” ”YENİ ƏSRİN MÜQAVİLƏSİ”NƏ DOĞRU

2017-ci ildə Bakıda Xəzər dənizinin Azərbaycan sektorunda ”Azəri”, ”Çıraq” yataqlarının və ”Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edildi və yenidən tərtib olunmuş saziş imzalandı. Bu, ”Azəri-Çıraq-Günəşli” nəhəng neft yatağının işlənilməsində yeni dövrün başlanması kimi qiymətləndirilib. ”Azəri-Çıraq-Günəşli” neft yatağının işlənilməsi 2050-ci ilə qədər uzadıldı. Müqavilənin uzadılması gələcək üçün uzunmüddətli çiçəklənməni və sabitliyi təmin edəcək. Bu müqavilə Azərbaycan üçün daha da əlverişlidir. Azərbaycan Prezidenti İlham Əliyev qeyd edib ki, 1994-cü ildə imzalanmış kontraktın bizim maraqlarımızı tam təmin etməsinə baxmayaraq, bu dəfə isə, daha yaxşı şərtlərlə kontrakt imzalanır. Həqiqətən də, ölkəmizdə uğurla inkişaf etdirilən neft strategiyası, neftlə bağlı əldə olunan nailiyyətlərimiz, bilavasitə Ulu Öndər Heydər Əliyev qətiyyətinin nəticəsidir və bu gün Onun kursunun layiqli davamçısı Cənab İlham Əliyev tərəfindən davam etdirilir. İyirmi səkkiz il ərzində Azərbaycan böyük yol keçmişdir. Azərbaycanda enerji sektorunda böyük nailiyyətlər əldə edilmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan bu gün o ölkələrdəndir ki, öz hesabına yaşayır: ”Bizim kifayət qədər böyük valyuta ehtiyatlarımız var, iqtisadiyyat dinamik şəkildə inkişaf edir, iqtisadi şaxələndirmə, neft-qaz amilindən asılılığının azaldılması istiqamətində çox önəmli addımlar atılmışdır və ölkəmizin gələcək inkişafı üçün nə siyasi, nə iqtisadi, nə də hər hansı bir başqa maneə və ya problem yoxdur”.

”Əsrin müqaviləsi”ndən ”Yeni Əsrin müqaviləsi”nədək gedən yol Ümummilli Lider Heydər Əliyevin təməlini qoyduğu neft strategiyası əsasında reallığa çevrilib. Azərbaycanın iqtisadi potensialının ən vacib komponenti olan neft amilinin düzgün idarə edilməsi 44 günlük Vətən müharibəsində özünü göstərdi. Azərbaycanın dünyanın hərbi baxımdan ən güclü dövlətlər sırasına çıxmasında məhz bu siyasətin düzgün qurulması həlledici rol oynadı. Ümummilli Lider Heydər Əliyev tərəfindən iqtisadi prioritetlərin düzgün müəyyən edilməsi və cənab İlham Əliyev tərəfindən bu siyasətin uğurla davam etdirilməsi nəticəsində güclü iqtisadiyyatımız bizə müdafiə sənayemizin inkişaf edilməsinə şərait yaratdı, güclü Azərbaycan Ordusu formalaşdı. Bu ordu 30 ilə yaxın işğalda olan torpaqlarımızı Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad etdi. Ölkəmizin iqtisadi qüdrətinin, beynəlxalq nüfuzunun, xalqımızın firavan həyatının qarantına çevrilmiş uzunmüddətli enerji strategiyası bu gün də Azərbaycanın dinamik inkişafı ilə paralel irəliləyərək, bir-birindən parlaq zəfərlərə yol açır, neft-qaz sənayemizi daha yüksək zirvələrə aparır.

***NƏZAKƏT ƏLƏDDİNQIZI***

ANALİTİK+AKTUAL

# Seçim etmək üçün Ermənistanın nəinki vaxtı, heç şansı da qalmayıb...





Karen Koçaryan:
**”ABŞ Ermənistandakı anti-Rusiya əhval-ruhiyyəsindən istifadə etmək qərarına gəlib”**

ABŞ rəsmisi Nensi Pelosinin Ermənistana səfəri ölkə daxilindəki siyasi gücləri bir-birinə vurub. Belə ki, Qərb tərəfdarı olan hakimiyyət, eləcə də hakimiyyətə qarşı müxalifətdə olan amerikapərəst müxalifətlə Rusiya yanlısı hesab edilən rusiyapərəst müxalifətlə qarşı-qarşıya gəlməkdədirlər. Maraqlıdır ki, hər iki tərəf ölkənin maraqlarının satılmasında bir-birlərini ittiham hədəfinə çevirirlər. O cümlədən, çıxış edən politoloqlar və siyasi texnoloqlar da hər şeyin məhz hakimiyyətdən asılı olduğunu deyirlər. Onlara görə zamanında doğru qərarlar verilməzsə, Ermənistanın xəritədə qalmaq şansı da getgedə azalmağa başlayacaq.

### Vaşinqton hər zaman erməni ictimaiyyətini rusiyayönümlü kimi qəbul edib, indi isə Ermənistanda anti-Rusiya əhval-ruhiyyəsi dominantlıq təşkil edir

”ABŞ Nümayəndələr palatasının sipkeri




Nensi Pelosinin səfəri iki əsas hədəfi nəzərdə tutub - seçkiqabağı (Konqresin Nümayəndələr palatası-R.R.) kampaniya və anti-Rusiya əhval-ruhiyyəsindən istifadə etmək”. SİA xəbər verir ki, bunu ”Sputnik-Armeniya”ya siyasi texnoloq Karen Koçaryan keçirdiyi mətbuat konfransında bildirib.

Onun fikrincə, ABŞ-ın Nümayəndələr palatasına seçkilər artıq cari ilin noyabrında keçiriləcək. Pelosinin özü isə İrəvanda bəyan edib ki, Kaliforniya əhalisinin 40%-i ermənilərdən ibarətdir. O, paralel olaraq ermənilərin yığcam yaşadıqları ştatların konqresmenlərini də nümayəndə heyətinə daxil edib.

Koçaryanın sözlərinə görə, Vaşinqton hər zaman erməni ictimaiyyətini rusiyayönümlü kimi qəbul edib, indi isə Ermənistanda anti-Rusiya əhval-ruhiyyəsi dominantlıq təşkil edir. Təbii ki, ABŞ da bu fürsətdən istifadə etməklə təşəbbüsü öz əlinə almaq qərarını verib.

### Ermənistanın sərhədlərində Türkiyə,



### Azərbaycan, İran və Rusiya orduları qalacaq

Bununla yanaşı, Koçaryan Pelosinin Ermənistanı tərk etməsinin ardınca sərhəd bölgələrdə vəziyyətin gərginləşəcəyindən də ehtiyat etdiyini bildirib. Onun fikrincə, hətta Pelosinin səfərindən sonra da regionda yeni oyunçular olmayacaq. Ermənistanın sərhədlərində Türkiyə, Azərbaycan, İran və Rusiya orduları qalacaq. Məhz bu kontekstdən çıxış edən erməni politoloqu Ermənistan hakimiyyətinə çağırış edərək bildirib ki, situasiyanı ayıq başla qiymətləndirsinlər və mümkün görünən hərbi əməliyyat təhlükəsinin qarşısını almaq üçün səy göstərsinlər. Yəni regiondakı güclü ölkələrin maraqlarına zidd getməyərək münasibətləri daha da korlamasınlar.

Erməni polittexnoloqu:
**”KTMT-nin İrəvana dəstək göstərmədiyi qədər Ermənistan da Rusiya üçün Cənubi Qafqaz məsələsində lazım deyil”**

”Əgər strateji müttəfiq ümidləri doğrultmadısa və özünü məhz Türkiyənin Azərbaycana münasibətində olduğu kimi aparmayıbsa, bu o demək deyil ki, bu günə qədər olan bütün münasibətləri pozmaq lazımdır”, deyən Karen Koçaryan əlavə edib ki, yaranmış situasiyada KTMT-nin İrəvana dəstək göstərmədiyi qədər Ermənistan da Rusiya üçün Cənubi Qafqaz məsələsində lazım deyil. O hesab edir ki, dəyişilə biləcək mövcud imkanlar olmadan KTMT-dən və Avrasiya İqtisadi İttifaqından çıxmaq adekvat qərar hesab edilə bilməz.

”Qoy kağızda göstərsinlər ki, hansı silahlar necə veriləcək, hansı güclər buraya göndəriləcək, yaxud KTMT-dən və ya Avrasiya İqtisadi İttifaqından çıxdıqdan sonra enerji daşıyıcılarına qoyulan qiymətlər necə olacaq, AES üçün iran tədarükünü haradan alacağıq. Suallar çoxdur və cavablar da kağızlarda olmalıdır”, deyə erməni siyasi texnoloqu bildirib.

Polittexnoloq mövcud siyasi situasiyanı şahmat lövhəsi ilə eyniləşdirib. Onun sözlərinə görə, Ermənistan firuqları hərəkətə gətirmək imkanlarından məhrub olub və hətta özü fiqur deyil, olsa da belə ”peşkadır”. SİTAT: ”Ölkə hakimiyyəti ”vəzir” ola biləcəyini sanan ”peşkadır” və təqsirkarları axtarmağa başlayıblar. Əlbəttə, Ermənistandakı vəziyyət kifayət qədər ağırdır, belə ki, region geosiyasi oyunçuların maraqlarının toqquşması yolayrıcına çevrilib. Biz isə həmin yo-



layrıcının mərkəzindəyik”.

Beləliklə, seçim Ermənistanındır və əslində seçim olub, sadəcə qalır bu seçim qarşılığında Ermənistanın uzun illər onu ayaqda saxlamağa çalışan ağalarına hansı cavabı verməsinə. Bir tərəfdən anti-Amerika Rusiyası, digər tərəfdən isə ABŞ-ı özünə qatı düşmən elan edən İran. Biz hələ Türkiyə-Azərbaycan güc tandemini də ortaya qoyarsaq tamamilə fərqli bir mənzərə yaranmağa başlayır. Proses davam edir, seçim etmək üçün isə Ermənistanın nəinki vaxtı, heç şansı da qalmayıb...

***Rövşən RƏSULOV***

# Neft buruqları, sərvət bulaqları...



Neft... Cəmi dörd hərfin birləşməsindən yaranan bu sadə söz səslənməsində heç də sadəliyi təzahür etmir. O, tərkibi kimi zənginliyi ehtiva edir özündə. O, qara qızıldır, var-dövlətdir, Allahın bəndəsinə verdiyi sərvətdir. Azərbaycanın neft payı da ulu Yaradanın bu xalqa bəxş etdiyi bir ərməğandır. Neft bu xalqın alın yazısıdır. Elə bu alın yazısı ilə də zamanla xeyli düşmən qazanmışıq, bu sərvətə sahib olmaq istəyənlərin Azərbaycan daim iştahası olub. Neftdən başqa digər sərvətlərlə də zəngin olan ölkəmizi ələ keçirib ona sahib olmaq istəyən yadellilərin daim bu torpaqları işğal etmək başlıca planı olub. Zamanla taleyindən bəzi ictimai formasiyalar keçsə də, xalqımızın sərvətləri bu ölkədən digər ölkələrə istiqamətləndirilsə də, bu kimi hallar zamanın bir kəsiyini təşkil edib. Azərbaycan xalqı məqam yetişən kimi torpaqlarının və bütün sərvətlərinin müdafiəsinə qalxıb, öz haqqını heç kimə verməyib.

## Bizim olan, lakin bizim olmayan neft

Həqiqətən müstəqil olmaqdan, müstəqil yaşamaqdan, özünün olanlara sahib çıxmaqdan gözəl heç nə ola bilməz. Müstəqil olarsansa, bütün sərvətlərin də sənə aid olar. Bu sərvətlərdən gələn gəlir də ölkənin inkişafına, tərəqqisinə xidmət edə bilər, əks təqdirdə isə bu, mümkün deyil. Tarixi faktlara nəzər yetirək: Rotşildlər və Nobel qardaşları kimi əsas investorların gəlişi ilə 20-ci əsrin əvvəllərində kapital axını Azərbaycanda neft hasilatının xeyli artırılmasına və xidmət sahəsində çevik artıma səbəb oldu. Bu artım dövrü Bakının memarlığında güclü izlər buraxdı, bunun sayəsində inzibati, sosial və bələdiyyə müəssisələri yaradıldı, neft baronları tərəfindən dəbdəbəli saraylar inşa edildi. 1901-ci ildə Azərbaycan 11,5 milyon ton neft hasil edərək dünyada birinci yerə sahib oldu.

Bəs sonra nə baş verdi? 1918-ci ildə qurulan Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq varlığı üzərini duman alıb onu 1920-ci ildə zorla sovet hakimiyyətinə təslim edəndən sonra neft bizim ola-ola 70 il daha bizim olmadı. Neft bizim sərvətimiz, bizə ulu Yaradanın bəxşişi olsa da, lakin onun axar səmti dəyişdirilmişdi. Bu sərvət 70 il sovet Rusiyasına axdı. Neftin idarə olunması da birbaşa ittifaq rəhbərlərinin əlində, nəzarətində oldu. Faktlara baxaq: 1920-ci ildə mayın 27-də dərc edilmiş dekret əsasında neft sənayesi milliləşdirildi. Respublika xalq təsərrüfatının əsas sahəsi olan neft sənayesinin milliləşdirilmiş müəssisələrinin idarə olunması və milliləşdirmənin qaydasının müəyyən edilməsi Azərbaycan Neft Komitəsi tərəfindən həyata keçirilirdi. Azərbaycan neftçiləri əzablı və gərgin əmək sayəsində əldə etdikləri 3 milyon tonadək nefti 1920-ci ilin sonunadək Rusiya SFSR-inə göndərmiş, beləliklə, onun iqtisadiyyatının dirçəlməsinə, müdafiəsinin təmin edilməsinə əsaslı zəmin yaratmışdır. VIII Ümumrusiya Sovetlər qurultayı əmək hünərinə görə Azərbaycan neftçilərini ilk "Qırmızı əmək bayrağı"ordeni ilə təltif etməyi qərara almışdır.

1921-ci ildə respublikanın sənaye istehsalı 1913-cü ilin istehsal səviyyəsinin 43 faizini təşkil edirdi. 1918-ci ildən 1921-ci ilə qədər Bakıda neftçi fəhlələrin sayı azalaraq 52 mindən 23 minə enmişdi. Bakı neft sənayesi xüsusilə ağır vəziyyətdə idi. Neft istehsalı üç dəfə azalmışdı, 1913-cü ildə istehsal edilmiş 7,3 milyon tondan 1920-21-ci təsərrüfat ilində 2,4 milyon tona enmişdi ki, bu da müharibədən əvvəlki səviyyənin 33,4 faizini təşkil edirdi. Yeni neft quyularının qazılması demək olar ki, tamamilə dayanmışdı. 40 neft emalı zavodundan yalnız 18-i fəaliyyətdə idi, onlar da lazımi avadanlıq və xammal çatışmazlığı üzündən fasilə ilə işləyirdi. Neft emalı 3,5 dəfəyə qədər azalmışdı.

1921-ci ilin əvvəllərində neft sənayesi ağır vəziyyətdə idi, vəsait çatışmazlığı üzündən, hətta mərkəzi sovet dövlətinin gücü ilə də onun yaxın zamanda bərpası mümkün olmadığından neft mədənlərini xarici kapitalistlərə konsessiyaya vermək məsələsi ortaya çıxdı.

Azərbaycan neftinin taleyi əsasən mərkəzi hakimiyyətin əlində olduğu üçün 1921-ci il fevralın 1-də RSFSR Xalq Komissarları Soveti qərar çıxardı: Bakının və Qroznının ayrı-ayrı neft rayonlarının, həmçinin başqa mədənlərin konsessiyaya verilməsi əsas etibarilə bəyənilsin. Rusiya XKS-i Ümumrusiya Xalq Təsərrüfatı Şurasına tapşırdı ki, neft çıxarmağı təmin etmək və mədənlərin indiki istismarı zamanı yarana biləcək fəlakətlərin səbəblərini öyrənmək üçün Bakıya və Qroznıya komissiyalar göndərsin.

Maraqlıdır, imperiya neftdən gələn gəliri mənimsəməyi yaxşı bacarırdı, lakin yaranmış problemləri həll etmək üçün xarici kapitalistləri Bakıya gətirmək istəyirdi. Bu, imperiyanın yeni bir planı idi. Uzun illərin neftçiləri olan Bakı fəhlələri isə buna əsla razı deyildilər. Beləliklə də onlar arasında belə bir inam var idi ki, öz mədənlərini konsessiyaya vermədən özləri bərpa edə bilərlər. Bu məsələ 1921-ci ilin ortalarında Moskvada keçirilmiş müşavirədə Bakı neftçilərinin nümayəndəsi - Mədən Fəhlələri Həmkarlar İttifaqı MK-nın sədr müavini M. E. Sapunovun məruzəsində qaldırılmışdı. Bu fikirlə tanış olan Vladimir Lenin onu kifayət qədər inandırıcı hesab etməmişdi. Buna görə Bakı neftçiləri öz nümayəndəsini -AHİŞ Rəyasət Heyətinin üzvü A. Nikişini Leninin görüşünə göndərərək, konsessiyalar haqqında müqavilənin bağlanmasını ləngitməyi xahiş etmiş və mədənləri öz qüvvələri ilə bərpa etməyə söz vermişdilər.

Onlar verdikləri sözə əməl etdilər. 1921-1922-ci illərdə Bakı fəhlələrinin istehsalat uğurları göstərdi ki, o zaman xarici kapitalın iştirakı olmadan da neft sənayesini dirçəltmək mümkündür. Bakı fəhlələrinin qəhrəmancasına əməyi nəticəsində 1922-ci ildə neft hasilatı artmağa başladı.

Beləliklə neft hasilatı artsa da, onun sahibi biz olmadığımız üçün 70 ildə ölkəmizin hər tərəfində, xüsusilə də ucqar kəndlərdə köhnəlik, miskinlik hökm sürürdü. Köhnə xəstəxanalar, məktəblər, ictimai yaşayış binaları, muzeylər, kitabxanalar, parklar, yollar, körpülər istismar müddətini bitirmiş, uçub-dağılmışdı. Rayonlarda kanalizasiya, kommunikasiya sistemləri bərbad vəziyyətdə idi. Xidmət obyektləri, ictimai yaşayış binaları o qədər köhnəlmişdi ki, yağış yağanda su damır, bu səbəbdən də otaqlara vedrə, vanna düzülürdü. Tikililər 70 ildə necə idisə, eləcə də qalmaqda idi. Yəni bu neft ölkəsində sərvətin sahibinin öz əlində olmaması hər hansı bir inkişafı, yeniliyi həyata keçirə bilməməyimizlə nəticələnirdi.

Sovet imperiyası isə Azərbaycan nefti ilə özünə məxsus olan şəhər və kəndləri abadlaşdırır, yeni yollar salır, bütün yenilikləri ölkələrində tətbiq edirdilər.

*Ardı Səh. 6*



# Neft buruqları, sərvət bulaqları...

Əvvəli Səh. 5







## Bakı nefti İkinci Dünya Müharibəsində

İkinci Dünya Müharibəsi Azərbaycandan uzaq şimali-qərb regionlarında başlansa da, Hitler neftlə zəngin olan Bakını zəbt etməyi özünün əsas məqsədlərindən biri hesab edirdi. 1941-ci ildə Azərbaycanda 23,5 milyon ton neft çıxarılmışdır ki, bu da bütün Sovet İttifaqında hasil olunan neftin 71,4%-ni təşkil etmişdir. Belə yüksək hasilat SSRİ-nin İkinci Dünya Müharibəsindəki qələbəsini təmin etmiş, xalq təsərrüfatının qarşısında duran bir çox məsələlərin həllində neftin xüsusi rolunu daha da artırmışdır.

Müharibə şəraiti ortaya yeni-yeni çətinliklər atırdı. 1942-ci ildə Qafqaz ərazisində döyüşlər getdiyindən Bakıda neft quyularının fəaliyyəti müvəqqəti olaraq dayandırıldı. Abşeron yarımadasında yeni yataqlar işə salınmadı. Bundan əlavə, istehsal olunmuş xammalı və neft məhsullarını Şimali Qafqaz və Volqa çayı ilə daşımaq mümkün deyildi. Çünki nəql infrastrukturu hərbi əməliyyatların getdiyi ərazilərdən keçirdi. Lakin tezliklə bu çətinlikdən də çıxış yolu tapıldı. Neft məhsullarını "yer anbarları"na və göllərə (Zığ, Masazır və s.) doldurmağa başladılar. Sonra onları Xəzər dənizi ilə nəql edirdilər. Müharibənin həlledici mərhələsi olan 1942-ci ildə Xəzər dənizi ilə cəbhəyə 505 min ton, Həştərxan vasitəsilə 336 min ton neft məhsulları daşınmışdır.

1942-ci ilin iyulun 23-də Hitler Qafqazla bağlı "Edelveys" kod adı altında strateji bir əməliyyatın həyata keçirilməsinə dair 45 nömrəli direktiv imzaladı. "Edelveys" planına görə, Qafqazın əsas neft rayonları (Bakı, Maykop, Qroznı) işğal edilməli, vermaxt həmin ərazilərin nefti hesabına şiddətli ehtiyac duyduğu yanacaq ilə təmin olunmalı idi. Almanların son dərəcə strateji məqsədləri hədəfləyən "Edelveys" planına görə Bakı 25 sentyabr 1942-ci ildə işğal olunmalı idi. Alman hərbi komandanlığı sovet orqanlarının neft mədənlərini sıradan çıxarmağa macal tapmaması üçün Bakıya gözlənilmədən, qəfil desant ordusu çıxarmağı planlaşdırırdı.

Faşistlərin hərbi hissələrinin 1942-ci ilin avqust ayının sonunda Şimali Qafqaza çatması və Qroznı neft rayonunun faşist ordusu tərəfindən zəbt edilməsi Bakı neftinin müharibənin gedişində əhəmiyyətini və rolunu daha da artırdı və onu ön plana çəkdi. İkinci Dünya Müharibəsi illərində Baltik dənizindən Qara dənizə qədər uzanmış cəbhənin tələb etdiyi bütün benzinin 80%-ni, sürtgü yağlarının 90%-ni Azərbaycan təmin edirdi.

İkinci Dünya Müharibəsində Azərbaycanın xidmətlərini yüksək qiymətləndirən Nikolay Baybakov demişdir: "Faşizm üzərində qələbə üçün Azərbaycanın etdiklərini bəlkə də heç bir respublika etməmişdir. 40-cı illərdə SSRİ-də çıxarılan 33 milyon ton neftin 23,5 milyon tonu Azərbaycanın payına düşürdü".

O dövrdə SSRİ-nin yüksək oktanlı benzinə böyük ehtiyacı vardı. Bu cür benzin hava döyüşlərində üstünlük əldə etmək üçün vacib amil idi. Belə ki, belə benzin təyyarənin sürətini artırır, göyə qalxma müddətini azaldırdı. Kimyaçı Yusif Məmmədəliyevin tədqiqatları sayəsində qısa müddətdə belə yüksək oktanlı benzin alındı. Marşal Konstantin Rokossovski demişdir: "Hər bir təyyarəmizin, tank ekipajının düşmənə zərbəsində Bakı neftçilərinin payı vardır".

Müharibə illəri Bakının neft mədənləri əsl cəbhəyə çevrilmişdi. Azərbaycan neftçiləri gecə-gündüz işləyirdilər. "Pravda" qəzeti 28 iyul 1941-ci il tarixli nömrəsindəki "Azərbaycan bu gün" adlı məqaləsində Staxanov hərəkatının önündə gedən, iki növbə işləyən neftçilərin, kənd yerində çalışan kolxozçuların, iməciliklər keçirərək cəbhədəki əsgərlərə yardım göstərən insanların fədakarlığından bəhs edirdi.

## "Əsrin müqaviləsi"

1991-ci ildə ölkəmizdə 1918-ci ildə əldə etdiyimiz müstəqilliyimiz bərpa edildikdən sonra təbii ki, sərvətlərimizin sahibinə çevrildik. Azərbaycan neftinin insan amilinə xidmət etməli olduğunu vurğulayan ümummilli liderimiz Heydər Əliyevin ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə gəlməsindən bir il sonra, 1994-cü il sentyabrın 20-də Bakıda Gülüstan Sarayında Qərbin neft şirkətləri ilə bağlanmış neft sazişi müstəqil Azərbaycan Respublikasının yeni tarixində böyük rol oynadı. "Əsrin müqaviləsi" adı ilə tanınmış bu müqavilə Xəzər dənizinin Azərbaycan sektorunda Azəri-Çıraq-Günəşli neft yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasil olunan neftin dünyanın 11 ən iri neft şirkəti arasında pay şəklində bölüşdürülməsinə səbəb oldu.

Bu müqavilənin imzalanması və onun gerçəkləşməsi müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən və böyük Heydər Əliyev tərəfindən işlənib hazırlanmış neft strategiyasının həyata keçirilməsinin təzahürü idi. Azərbaycanın "Əsrin müqaviləsi"ndən başlanan yolu haqqında Heydər Əliyev demişdir: "1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyasının da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha da səmərəli istifadə etməkdən ibarətdir".

"Əsrin müqaviləsi" Azərbaycan neftinə verilmiş ikinci həyat oldu. Bu müqavilə dünya dövlətlərinin Azərbaycanı tanımasına, ölkəmizin dünya miqyasında nüfuzunun artmasına, həm də ölkəmizin inkişafına atılmış imza oldu. Müstəqilliyimiz də neftimizlə möhkəmləndirildi. Dünya müstəqil Azərbaycanı tanıdı. Həmin dövrədək lazımi şəkildə istifadə edə bilmədiyimiz sərvətimiz bu dəfə dünyanı bizlərə dost etdi.

Müqavilədən sonra, 1997-ci ildə Bakı-Novorossiysk Şimal ixrac boru kəmərinin, 1999-cu ildə isə Bakı-Supsa Qərb ixrac boru kəmərinin, 2006-cı ildə isə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin istifadəyə verilməsi, yeni yataqların kəşf olunması ölkəmizə gəlir gətirdikcə neft xalqın rifah halının yaxşılaşması üçün stimul oldu. Neft amilindən insan amilinə doğru bir inkişaf mərhələsi başlandı.

## Neft kapitalından insan kapitalına

Beləliklə sərvətimizin sahibi olub onu təyinatı üzrə istifadə etməklə xalqın rifah halı yüksəlməyə başladı. 1990-cı illərin əvvəllərində ölkəmizin çökmüş iqtisadiyyatı neft amili ilə dirçəlməyə başladı. İqtisadi vəziyyətimiz yaxşılaşdıqca ölkəmiz inkişaf etdi. Mərkəzi şəhərlərdən tutmuş ən ucqar kəndlərimizədək yenidənqurma işləri başlandı. Azərbaycana yeni Azərbaycan yaradıldı.

Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən təsdiq edilmiş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xaricdə təhsil alması üzrə Dövlət Proqramı"nın dəstəyi ilə neft kapitalının insan kapitalına çevrilməsi strategiyası həyata keçirilməyə başlandı. İndi minlərlə tələbə dövlət hesabına dünyanın ən prestijli ali məktəblərində təhsil alır.

Əhalinin sağlamlığı və gələcəyimiz olan gənclərin təhsili həmişə dövlət siyasətinin prioriteti olan ölkəmizdə yeni məktəblərin və xəstəxanaların tikilməsi, onların ən müasir avadanlıqlarla təmin olunması dediklərimizi bir daha təsdiqlədi. Kitabxanalar, muzeylər, digər sosial obyektlər tikildi. Yollar abadlaşdırıldı, park və xiyabanlar salındı.

70 il sovet imperiyası dövründəki Azərbaycandan qısa zaman kəsiyində əsər-əlamət qalmadı. Ölkəmiz neftimizlə gündən-günə gözəlliklər diyarına çevrildi. İnsanların rifah halı yaxşılaşdı. Əmək haqları, pensiyalar artırıldı. Yeni iş yerləri yaradıldı. Aztəminatlı ailələrin sosial müdafiəsi gücləndirildi. Vətəndaşların ən yaxşı həyat şəraitinin qurulması üçün tədbirlər görüldü.

Ölkəmizin iqtisadiyyatı gücləndikcə, neftdən gələn gəlirlərimiz artdıqca, ordumuzun inkişafını müşahidə etdik. Bu, ən vacib məsələlərdən biri idi. Çünki biz 30 il öncə torpaqlarımızı ordumuzun təchizatının zəif olması səbəbindən itirmişdik. O torpaqlar geri qaytarılmalı idi. Çünki neftimiz kimi, torpaqlarımız da bizim sərvətimiz, həm də şərəf və namusumuzdur.

İkinci Dünya Müharibəsində qələbənin qazanılmasında böyük rolu olan Azərbaycan neftinin 2020-ci ildə öz torpaqlarımızın da erməni işğalından azad olunmasında böyük rolu oldu. İllər ərzində dövlət büdcəsi vəsaitinin xeyli hissəsinin xərcləndiyi ordumuzun təchizat məsələsinin həlli bizə Qarabağımızı qaytardı. O Qarabağı ki, 30 il düşmən tapdağı altında qalmışdı. Soydaşlarımız öz doğma ev-eşiklərindən zorla çıxarılmış, silah gücünə torpaqlarını tərk etmişdilər. 30 il idi ki, soydaşlarımız qaçqın, köçkün, didərgin statusu ilə yaşayırdılar. Buna görə Qarabağ Zəfəri tariximizin şanlı səhifəsinə çevrildi. İnsanlara doğma torpaqlarını yenidən bəxş etdi. Onların yurd həsrətinə son qoydu.

Hazırda yenə də bu təbii sərvətimizin ölkəmizə gətirdiyi gəlirlə Qarabağ yenidən qurulur. Qurulur ki, sakinlərini qarşılasın. İnsanlar dədə-baba yurdlarına qayıda bilsinlər. Axı düşmən o torpaqlarda daşı daş üstündə qoymayıb. Buna görə də şəhər, kəndlərimiz yenidən qurulur, sakinlərinin rahat yaşayışı üçün abadlaşdırılır. Artıq Zəngilandan başlanan Böyük Qayıdış yaxın gələcəkdə bütün azad torpaqlarımızı əhatə edəcəkdir.

Bir sözlə, ötən illərin tarixini bir-bir səhifələdikcə neftli həyatımızın da müxtəlif dövrləri, zamanları ilə qarşılaşırıq. Lakin həmin dövrlər arasında neftimizin ötən illərdəki qədər ölkəmizin inkişafına, tərəqqisinə yönəldilməsini görməmişik. Dövlətimizin başçısının illər öncə səsləndirdiyi "Biz neft kapitalını insan kapitalına çevirməliyik" şüarı artıq real həyatda öz əksini tapıb. Biz buna nail ola bilmişik.

Ölkəmizdəki neft buruqları sərvət bulaqlarımızdır, daim qaynayır, o bulaqlardan sərvət axır, inkişaf, tərəqqi, rifah axır. Axdıqca da vətəndaşın rifahına çevrilir. Bu səbəbdən də Azərbaycan vətəndaşı ona qayğı göstərən dövlətinin arxasında, "dəmir yumruğ"un ətrafındadır.

Neftdən söhbət açmışıqsa, əsas məsələni də qeyd edək ki, 20 sentyabr ölkəmizdə Neftçilər günü, neftçilərimizin peşə bayramıdır. Bu çətin və şərəfli peşədə neftçilərimizə uğurlar arzulayır, onlara "bu ölkənin sahib olduğu neftlə və bu neftin taleyi tapşırılan sizlərlə fəxr edirik", - deyirik. Qoy buruqlarımızdan hər zaman sərvət axsın... Bulaq kimi.

***Mətanət MƏMMƏDOVA***

# Mənzil alarkən ən çox hansı səhvlərə yol veririk?

**Son illərdə vətəndaşların üzləşdiyi ciddi hüquqi məsələrdən biri də mənzil-tikinti kooperativlərindən mənzilləri alarkən yaşadığı problemlərdir. Qeyd edilən alqı-satqı müqavilələri bağlanan zaman vətəndaşlarla kooperativ arasında yaranan münasibətlər bəzən hüquqi müstəvidən çox kənarlaşaraq qeyd edilən müqavilələr üçün Azərbaycan Respublikasının Mülki Məcəlləsi və digər normativ aktları ilə müəyyən edilmiş normalara riayət edilmir. Bu da əksər hallarda gələcəkdə müəyyən hüquqi problemlərə səbəb olur.**



Mənzil alışı prosesindəki ən vacib məsələlərdən biri şirkətin etibarlılığıdır. Vətəndaş xüsusilə də yeni bir binadan mənzil almağa hazırlaşırsa, layihənin sahibi olan şirkəti hərtərəfli araşdırmalıdır. Beləliklə, yarana biləcək hər hansı bir problem zamanı şirkətin sizə necə kömək edə biləcəyi barədə bir fikir formalaşacaq. Şirkəti araşdırarkən, varsa, mütləq köhnə layihələrinə nəzər salmaq lazımdır. Müştəri şərhlərini nəzərə almaq da çox faydalıdır. Həmçinin, ev sahiblərinin hansı problemlərlə qarşılaşdıqları və bu problemlərin necə həll edildiyi kimi məsələləri qiymətləndirmək məsləhətli sayılır. Yaşayış komplekslərinin satışını həyata keçirən şirkətlər müştərilər üçün maraqlı təkliflər edirlər. Lakin bir çox hallarda bu təkliflər müştəri istəkləri ilə üst-üstə düşmür. Mənzil almaq istəyib, yalnız bütün məbləğin olmaması nadir hal deyil. Vətəndaşlar bir çox hallarda məcburi ipoteka kreditindən istifadə etməli olurlar. İpoteka müştərinin həm leyhinə, həm də əleyhinə ola bilər. İpoteka alan zaman fikir verməli olduğunuz bir neçə amil olmalıdır.

Məbləğin manatla olması - bu gələcəkdə devalivasiya zamanı sizə zərər yetirməyəcək amillərdən biridir.

FİFD - Faktiki illik faiz dərəcəsi normalda qeyri dövlət ipoteka üçün 10-12 % arasında dəyişə bilər.

Sığorta - Normalda bütün mənzillər həm ipoteka, həm də ki nağd alış zamanı icbari sığortalanmalıdır. Həmin sığortanın, bir illik dəyəri tikinti şirkəti tərəfindən ödənilməlidir.

Hazırda ölkəmizdə inşaat sektorunda əsl canlanma müşahidə olunur. Təsadüfi deyil ki, son illərdə tikilən evlərin keyfiyyəti artıb, müxtəlif konsepsiyalı layihələr həyata keçirilir. Tikinti şirkətləri biri-birindən cəlbedici şərtlər təklif etdiyindən, potensial alı-



cı üçün seçim etmək xeyli çətinləşib.

**”MBA Consulting Group” rəhbəri Nüsrət İbrahimov** SİA-ya açıqlamasında mənzil alarkən vətəndaşların üzləşdiyi əsas problemlərdən danışıb.

Əgər vətəndaş sənədsiz həyət evi alırsa onun problemi daha böyük olur. Yeni sənədsiz deyəndə torpağa hüquqi təsdiqedici sənəd yoxdur və təbii bu sənəd yoxdursa üzərindəki tikiliyə də heç bir hüquq yoxdur. Son olaraq sənədləşdirilməsi demək olar ki, 99,9 faiz problemlidir. Ona görə də vətəndaşlar daşınmaz əmlakın alqısının imtina etməsi daha məqsədəuyğundur. Elə evlərin ucuz satmağına səbəb bir mənzili bir neçə adama satmaq kimi hallarla rastlaşmasıdır. Ümumiyyətlə hüquqi təsdiqedici sənəd olmadan hər hansı bir daşınmaz əmlakı almaq böyük riskdir. Daşınmaz əmlakın təyinatına xələl gətirmədən daşınması mümkün deyil və ikincisi də dövlət qeydiyyatına alan, yəni, reyserə düşən mənzillərdir. Reysərə düşməyibsə o hüquqi cəhətdən daşınmaz əmlak sayılmır.

”Mənzil alarkən hal-hazırda ən aktual olan məsələ onun yerləşməsi, ətrafındakı infrastruktur göstəriciləri, nəqliyyat baxımından əlçatanlıq həyat üçün zəruri olan obyektlərin yaxınlığında yerləşməsi, habelə mənzilin yerləşdiyi binanın keyfiyyətli materialdan inşa olunması, həmin binanı tikən və yaxud idarə edən mənzil MTK-ların ictimai nüfuzu, binanın inşasına qədər gördüyü işlərdə hər hansı prosedur problemlərin yaranmaması, eyni zamanda mənzillərin hüquqi problemlərin olmamasıdır”. **Bu sözləri Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin sədri, ”Vecon Consulting” şirkətinin direktoru, iqtisadçı ekspert Vüqar Oruc deyib.**

Bilirsiniz ki, bəzi hallarda məhkəmə predmeti olan mənzil alqı-satqısı var. Eyni



vaxtda bir neçə nəfərə satılır və çox ciddi mübahisələr meydana çıxır. Sənədləşmə işinə ciddi diqqət yetirməlidir. Hazırda elektron qaydada mənzilin çıxarışını yoxlamaq imkanları da var. Və bütün sənədlərin qanuniliyini yoxladıqdan sonra alqı-satqı prosesinə start verilməlidir. Mənzil ilk növbədə insanların yaşayışı üçün komfort şəraitin olması ilə seçilir. Bilirik ki, mənzillər həm yaşayış, həm də köməkçi otaqlardan ibarətdir.

Yaşayış otağı geniş işıqlandırılmış mənzərəli olmağı ilə insanların zövqünə oxşaya bilər. Günəşin düşməsi həm də işıqlı mənzillərin olması insanın həm iş yaşayış komfektruna uyğun olur, həm də sağlamlıq problemləri yaratmır. Digər tərəfdən mənzilləri alarkən hüquqi prosedurlara ciddi əhəmiyyət vermək lazımdır. Adətən vasitəçilər bu prosesdə daha aktiv olur və bir çox hallarda problemlərin yaranması da onların öz işlərinə ciddi yanaşmamaların nəticəsi kimi meydana çıxır. Mənzil alışı zamanı iki variantda həyata keçrilir. Təmirsiz vəziyyətdə alır özü təmir edir, digər tərəfdə isə mənzil tam təmirli şəkildə əldə olunur ki, burada da alıcının zövqü yalnız təmirin bitdiyi an hesablanır. Artıq reallıq olaraq mənzilin vəziyyəti alıcı tərəfindən qəbul edilir və ya bəzi dəyişikliklər edilir. Mənzilə yerləşdikdə mərtəbənin zövq məsələsinə uyğun olmasını da qeyd etmək lazımdır. Elə insanlar var ki, aşağı mərtəbələrə üstünlük verir. Yuxarı mərtəbələr həm mənzərə baxımından, həm də təhlükəsizlik baxımından daha əlverişlidir.

Yeni tikililərin insanlara verdiyi komfortu hiss etmək baxımından daha yüksək mərtəbələri almağı məsləhətlidir. Alıcı hər hansı qiymətləndirmə şirkəti ilə məsləhətləşərkən öz işini daha ehtiyatlı və sağlam görmüş olar. Azərbaycan bu təcrübə tam həyata keçrilməyibdir və bəzi istisnalar şərtilə mənzilləri alan şəxslər yalnız özlərinin və ya yaxın ailə üzvrinin zövqlərini baxışlarını nəzərə alırlar. Ancaq məsləhət görülür ki, mütəxəssis məsələnin üçüncü tərəfin kimi öz münasibətini bildirsin.

Hərkəsin marağında olan ilk iş alqı-satqının baş tutmasıdır. Yəni satan tərəf mənzilin satılmasını istəyir, alan tərəf də təbii ki müştəri olaraq mənzili əldə edir. Burada üçüncü bir tərəfin qoşulmağı vacib şərtdir ki, bu bir tərəfsiz müstəqil bir tərəfi olmalıdır. Qiymətləndirmə şirkətləri alqı-satqı prosesi ilə maraqlanmır, yəni alanın və satanın tərəfindən deyil məhz üçüncü müstəqil tərəf kimi iştirak edərək alınacaq mənzilin bütün mənfi və müsbət xüsusiyyətlərini qeyd etmək imkanına malik olur. Bu da alqı-satqı prosesinin şəffaflığı ilə təmin etməsinə gətirib çıxarır. Sadaladığımız məsələlərlə vətəndaşlar qarşılaşmasın deyə məhz qiymətləndirmə şirkətləri iştirak edir. Ona görə də müqavilə imzalanmamışdan, konkret qərar verməmişdən qabaq qiymətləndirmə şirkətinin orada iştirak etməsi mütləqdir. Əsas məqsəd eyni zamanda vətəndaşların mənzil seçimində bir kvadrat metri orta bazar qiymətində dəyərləndirilməsinin müəyyən etməsi ilə maraqlı olmalıdırlar.

35000 çıxarışın içində yeni əldə olunmuş mənzillərin sayı 64737 rəqəmi təşkil edir. Təkrar qeydiyyat, yəni bir mülkiyyətçinin mülkiyyətdən çıxarılaraq digərinə ötürülmə faktları 24571 nəfərdir. Bu onu göstərir ki daşınmaz əmlak bazarında aktivlik 2021-ci ildə olduğu kimi 2022-ci ilində də hökm sürməkdədir. Ümumiyyətlə təkcə çıxarış alanlar deyil, eyni zamanda bütün daşınmaz əmlak bazarını təhlil etsək görə bilərik ki, say etibarilə ən çox alqı-satqı predmeti kimi çıxış edən torpaq sahələri və mənzillərdir.

### Bəs mənzil alarkən hüquqi tərəflərini necə həll etmək lazımdır?

**Hüquqşünas İnara Camal bu haqda SİA-ya danışıb.**

Vəkillik fəaliyyəti haqqında qanunun 20-



ci maddəsində maddi vəziyyətinə görə öz hesabına vəkil tutmaq imkanı olmayan şəxsə dövlət hesabına hüquqi yardım göstərən vəkil öz vəzifələrini yerinə yetirməkdən imtina edə bilməz.

Həmin qanunun 16-cı maddəsinə görə vəkil onun tərəfindən qəbul edilən müdafiə öhdəçiliyindən imtina etməməlidir. Bu o deməkdir ki, vəkil hüquqi yardımın göstərilməsindən müqavilə bağlanana qədər imtina edə bilər. Artıq müqavilə bağlanıbsa imtinaya yol verilmir.

**Vətəndaşların Əmək Hüquqlarının Müdafiə Liqasının rəhbəri, vəkil Sahib**



**Məmədov** isə qeyd edir.

Mənzil tikinti koorporativləri adı altında çoxlu tikinti qurumlar fəaliyyət göstərir. Vergi məsələlərinə görə MTK pərdəsi altında gizlənirlər. Ən böyük risk ondan ibarətdir ki, tikinti bütün mərhələlərdə dövlət reyestrindən yarımçıq tikinti kimi qeydiyyatdan keçirilmir və payçıların qoyduğu vəsait sığortalanmır. Nəticədə mənzil 0 həddinə qədər tikiləndən sonra payçılar ora qoyduğu pul həddində qeydiyyata alınmalıdır və sığortalanmalıdır. Bilinməlidir ki, hansı mənzil kimin adına dövlət reyestrində qeydiyyatdan keçib. Belə halda risklər aradan qalxır. Bu olmadığı halda isə dəfələrlə şahidi olmuş xeyli sayda belə hal vardır ki, bir mənzil bir neçə şəxsə satılır və nəticədə risk yaranır. Alıcı əmin olmalıdır ki, tikinti şirkətinin səriştəliyi düzgündür.

Əlbəttə müqavilə öhdəliyinə girmiş vəkil istər cinayət işində, istər inzibati işdə, istər də mülki işdə müştərisinə hüquqi yardımı göstərməlidir. Amma müqavilə bağlanana qədər müxtəlif səbəblərdən vəkil işi qəbul etməyə bilər. Burada maraqların toqquşması səbəbi və qərəzlilik məsələləri də ola bilər.

***Havar Şəfiyeva***

ANALİTİK + AKTUAL

# Siyasi möhtəkirlər yığnağı: rəzillik və murdarlıq bataqlığında məhvin reallığı



## Belə bir "münasibəti" heç erməni öz dövlətinə qarşı göstərməzdi ki, Əli Kərimli, Gültəkin Hacıbəyli, Tural Sadıqlı, Tofiq Yaqublu, Qubad İbadoğlu, Sevinc Osmanqızı və s. kimi riyakar və rəzil ünsürlər həmin sözləri dilinə gətirdilər

Xalqımız cəbhədə qazanılan tarixi qələbə reallığını yaşadığı bir zamanda istər sapı özümüzdən olan baltaların, istərsə də onlara sifarişlər verib, sözün əsl mənasında, Azərbaycan dövlətinin üzərinə qısqırdan xarici düşmənlərimizin tələsik oyunlarına start verildi, özü də şəhidlərimizin müqəddəs qanları üzərində (?!-R.Q.)




Xalqımızın növbəti dəfə bir araya gəldiyi, vahid yumruq tək birləşdiyi anda özlərini "müxalifət liderləri" adlandıran siyasi nakəslər, habelə xarici ölkələrdə düşmən çörəyi ilə bəslənən sözdə "dissidentlər", əslində isə, erməni nökərləri dərhal (!) milli heysiyyatımıza toxunan nalayiq fikirləri ilə ortalığa düşdülər. AXCP sədri Əli Kərimli, Müsavatın başqanı Arif Hacılı, "Milli Şura" üzvləri - Gültəkin Hacıbəyli, Tofiq Yaqublu, ABŞ-ın qaranlıq dairələrində şübhəli müzakirələr aparan Qubad İbadoğlu, özünü və sözünü bilməyən rəzil Altay Göyüşov və sairləri ikrah dolu ucuz düşüncələri, nadanlıqları ilə sağlam düşüncəli ictimai rəyin hiddətinə səbəb oldular.




## Əli Kərimlinin ucuz təfəkkür və xəstə təxəyyül məhsulunun verdiyi üfunət qoxulu sətirlərinə nə qədər ağır və çətin olsa da nəzər salaq




Hətta vəziyyət o həddə gəlib-çıxdı ki, onlar açıq-aydın düşmənin xeyrinə çıxış etməyə, işğalçını və təcavüzkarın tərəfini tutmağa başladılar. Təkcə AXCP sədri Əli Kərimlinin ucuz təfəkkür və xəstə təxəyyül məhsulunun verdiyi üfunət qoxulu sətirlərinə nə qədər ağır və çətin olsa da nəzər salaq. O, Azərbaycan dövlətini hədəfə alan suallarını önə sürür: "Heç bir zərurət olmadan Aprel döyüşlərində olduğuna yaxın itki verdik. Yenə də say - seçmə oğullar, zabitlər, gizirlər, komandolar, əsgərlər şəhid oldu. Nəyin naminə? Nəyə nail olduq? Sərhəddəki döyüşlərin səbəbi, məqsədi nədir? Biz haqlıyıqsa, nəyə görə BMT Təhlükəsizlik Şurasında bizi qınayıblar? Bu vəziyyət ölkəmizin diplomatik məğlubiyyəti deyilmi? Nəyə görə haqlı ikən haqsız duruma düşdük? Yenicə ağır yaralanıb qazi olmuş igidlərimizdəmi bir müddətdən sonra digər 42 qazimiz kimi özünü öldürmə həddinə çatdırılacaq?"




Açığını desək, belə bir "münasibəti" heç erməni öz dövlətinə qarşı göstərməzdi ki, Əli Kərimli, Gültəkin Hacıbəyli, Tural Sadıqlı, Tofiq Yaqublu, Qubad İbadoğlu, Sevinc Osmanqızı və s. kimi riyakar və rəzil ünsürlər həmin sözləri dilinə gətirdilər. Əslində, xainlik sindromlu ab-havanın üfunətli qoxusu bu məsələdə şkala həddini aşır və sürətlə ərtafa yayılır.




Yeni dövlət öz sərhədlərinin təhlükəsizliyini təmin edir, düşmənin içlərimizə doğru irəliləməsinin qarşısını alır, bu yolda oğullarımız qorxmadan, çəkinmədən canlarını sipər edirlər, haranınsa siyasi tülüngüləri sırf düşmən marağını izhar edirlər!

## Əli Kərimli Azərbaycan xalqına və ordusuna nə qədər nifrət edir ki...

Adam nə qədər alçaq və xain olmalıdır ki, Azərbaycanın ərazi bütövlüyü uğrunda Şəhid olan qəhrəmanlarımızın ruhuna hörmətsizlik edərək Onların nəyin naminə vuruşduqlarını söyləyə? Görün, Əli Kərimli Azərbaycan xalqına və ordu-




suna nə qədər nifrət edir ki, Şəhidlərimizin şücaətini və vətən uğrunda tökdüyü qanı heçə sayır, erməni təcavüzünün qarşısını alan əsgər və zabitlərimizin nəyin naminə şəhid olduqlarını sorğu-sual edir? Bu sualı xalqımızın düşmənindən başqa kim verə bilər? Ermənilər üçün bundan yaxşı anti-Azərbaycan tezisi ola bilərmi?

## Əli Kərimlinin sərsəm sualına arqumentli cavab budur!

Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli iradəsi və qəhrəman Ordumuzun şücaəti, eləcə də yüksək döyüş qabiliyyəti sayəsində torpaqlarımıza həyasızcasına soxulan Ermənistan ordusunun bu dəfə də başlarının əzilməzi düşmənin ayaq açıb yürüməsinə imkan vermədi. Ermənistanın Azərbaycanla delimitasiya və demarkasiya olunmamış sərhəd ərazilərində - Laçın, Kəlbəcər və Zəngilan istiqamətində qurulmuş və milli təhlükəsizliyimizə, suverenliyimizə təhdid yaradan bütün hərbi təyinatlı obyektləri bir daha təhlükə yarada bilməyəcək şəkildə darmadağın edildi, həmin bölgədə bütün nəqliyyat-kommunikasiya sistemi, çox mühüm yüksəkliklər nəzarətə götürüldü. Təcavüzkar düşmənin xeyli sayda hərbi texnikaları, hər zaman öyündüyü və dəyəri milyarddan artıq olan iki S-300 və S-125 raketləri, 500 nəfərə yaxın canlı qüvvəsi, onlarla postları məhv edildi. Bundan sonra Ermənistan heç vaxt arxalandığı hansısa qüvvələrinin təhriki ilə Azərbaycanı ümumiyyətlə, fakt qarşısında qoya bilməz. Artıq həmin məqam danılmaz aksiomaya çevrilib.




AXCP-nin sədri istifadəyə yararsız düşüncəsi ilə sual edir ki, "biz haqlıyıqsa, nəyə görə BMT Təhlükəsizlik Şurasında bizi qınayıblar? Bu vəziyyət ölkəmizin diplomatik məğlubiyyəti deyilmi?"

Əslində, bu adama başa salmaq (əgər anlamağa qadir ünsürdürsə) lazımdır ki, Azərbaycana dost olan çoxsaylı ölkələrlə yanaşı, Fransa kimi, ABŞ-ın üçüncü şəxsi Nensi Pelosi kimi və ümumiyyətlə, siyasi dairələri kimi ermənipərəst olan ölkələr də var. BMT TŞ-da keçirilən müzakirələrdə isə düşmən Ermənistandan başqa heç kim Azərbaycanı qınamayıb, xaricdə oturub söyüş müxalifətçiliyi edənlərə idə qucaq açaraq ölkəmizə qarşı istifadə edən Fransa isə məxsusi olaraq və həmişəki kimi Ermənistanı müdafiə edib!

## Altay Göyüşov kimi namərdlər də az deyil...

Altay Göyüşov və sairləri isə daha da irəliyə gedərək Azərbaycanı Ermənistana qarşı təcavüz etməkdə ittiham edib, üstəlik, Azərbaycan oğullarının uğrunda can verdikləri torpaqlarımızı da təhqirə məruz qoyub. Ümumiyyətlə, özünü azərbaycanlı və ya heç olmasa vicdanlı kəs kimi görən istənilən şəxs öz dövlətinə və xalqına qarşı bu qədər düşmən mövqeyində dayanmamalıdır. Məsələ ondadır ki, Azərbaycana qarşı şərəfsizcəsinə atdığı bu iftiralardan sonra Ermənistanın ölkəmizə qarşı gücləndirdiyi təbliğat maşınının qəhrəmanına çevrilən Altay Göyüşov kimi namərdlər də az deyil. Misal üçün, Müsavat başqanı Arif Hacılının da həmin kirli yorğana bürünərək Azərbaycan Ordusunun keçirdiyi uğurlu əməliyyata dil uzadaraq "bu yüksəkliklər bizim nəyimizə lazımdır" deməsi onların hər birinin bir bezin qırağı olduğunu isbatlayır.

Ancaq, bu bədbəxt rəzillər anlamırlar ki, erməni işğalı nəticəsində milli ləyaqəti tapdanan xalqımız Vətən müharibəsindəki tarixi qələbədən sonra qalib millət olaraq yenidən doğuldu, torpağını azad etmək üçün qəhrəmanlar yetişdirən və vətən yolunda Şəhid edən xalq hər zaman güclü dövlətinə, Şanlı Ordusuna və qətiyyətli, Müzəffər Ali Baş Komandanına sahib çıxacaq və bu kimi murdar xislətliləri də birdəfəlik tarixin arxivinə atıb, oradaca siyasi fatihələrini oxuyacaq.

**Rövşən RƏSULOV**




# Yeni məktəblərin açılması ölkəyə nə qazandırır?



"Cənab Prezident İlham Əliyevin Ulu öndər tərəfindən əsası qoyulmuş ideologiyanın davam etdirilməsi birbaşa elmə və təhsilə söykənir". Bu fikirləri SİA-ya açıqlamasında millət vəkili Sadiq Qurbanov bildirib.

Millət vəkili qeyd edib ki, elmin eyni zamanda da təhsilin yaxşı şəkildə inkişaf etdirilərək, əldə edilməsi üçün günü-gündən yeni məktəblər açılır: "Yeni məktəblərin açılması həmçinin yeni texnologiyaların tətbiq olunmasına şərait yaradır. Ümummilli liderimizin başladığı işi bu gün cənab Prezident İlham Əliyev siyasəti, Mehriban xanımın diqqəti və qayğısı ilə həyata keçirilir. Heydər Əliyev Fondunun bu sahəyə diqqətidə özünü çox böyük formatda göstərir. Yeni məktəblərin tikilməsi və infrasturukturların yaradılması regionlarda xüsusi olaraq bu sahəyə diqqətin ayrılması Azərbaycanın uğurların tövhə verir. 44 günlük müharibədə göstərdikləri şücayətə, qorxmazlığa və dəyanətli olmalarına görə bu gün biz əsgərlərimizə və zabitlərimizə xüsusi diqqət ayırırıq. Lakin onuda qeyd etmək lazımdır ki, həmin vətənpərvərlik ruhu məhz təhsil ocaqlarında aşılanıb. Təhsil ocaqları bizim bu günkü həyatımızın formalaşmasında mühim rol oynayır. Cənab Prezidentin və Mehriban xanım Əliyevanın ölkədə fəaliyyət göstərən məktəblərin açılışında özlərinin birbaşa iştirakı həmin müəsissələrin qarşısında önəmli bir məsuliyyət qoyur. Çünki həmin məktəblər zamanın tələbinə cavab verən çağdaş gənclər yetişdirməlidirlər. Cənab Prezident İlham Əliyev bir neçə il bundan öncə 4-cü Sənaye İnqilabının regional mərkəzini Azərbaycana gətirdi. Bu da yeni dünyanın elmi inkişafı deməkdir. Son zamanlarda müəllimlərin sertifikasiyadan keçirilməsi və onların yenidən ixtisaslaşması baş verir. Həmçinin ölkədə fəaliyyət göstərən məktəblərin təchizatında, komputerləşmənin həyata keçirilməsi və daha müasir məktəblərin yaradılması və s. bütün bunlar mühüm amillərdir. Bu amillərin hər biri Azərbaycanımızın bu gününə, eyni zamanda sabahına xidmət edir. Biz güclü dövlət olmağımıza elmimizlədə sübut etdik. Cənab Prezidentin bu sahəyə olan xüsusi diqqəti təhsil və elmimizin inkişafına böyük təkan verir".



# Təxribatçı Nensi Pelosiyan

**Konqresin Nümayəndələr Palatasının sədri Nensi Pelosinin Ermənistana səfəri ABŞ-ın Cənubi Qafqaz siyasətindəki gizlinlərə aydınlıq gətirdi. Buna oxşar hadisələrdən biri də bu yaxınlarda xanım spikerin Çinin ərazisi sayılan Tayvana israrlı səfəri zamanı da yaşandı. Bu dəfə ABŞ-Çin münasibətlərinin hansı səviyyədə olduğu əyani şəkildə üzə çıxdı. Spiker qadın lakmus kağızı kimi sanki dövlətlərarası münasibətlərin rəngini müəyyənləşdirir. Ermənistana səfəri ilə də Pelosi ABŞ-ın əslində regional siyasətə hansı rakursdan baxdığını dəqiq konturları ilə göstərdi. İndi artıq rəsmi Vaşinqtonun Ermənistan-Azərbaycan qarşıdurmasında kimin yanında, haqqın, yoxsa nahaqqın, işğalçının, yoxsa işğala məruz qalanın yanında olduğunu bəlli etdi. Sağ olsun, ən azından kimin kim olduğunu gec də olsa ifşa etdi.**

Nensi Pelosinin Ermənistan səfəri həm də ABŞ-ın demokratiyadan, beynəlxalq münsibətlərin norma və prinsiplərindən xeyli uzaqlaşdığını sübut etdi. Yoxsa 30 il bundan əvvəl haqqı tapdalanmış, hüquqları pozulmuş azərbaycanlıların yanında olmağa niyə tələsmədilər. Əgər burada ikili standartlar yoxdursa ABŞ niyə ayrıseçkilik salsın, niyə dünyanın yazılan qanunlarını çeynəsin? Necə ki, İravanda ermənilərin dili ilə Azərbaycanı ittiham etdi, 30 illik erməni işğalına susan ABŞ təmsilçisi Konqresə seçkilərdə partiyasının bir iki erməni səsi qazanması üçün dövləti maraqlarına tüpürdü. Halbuki, kollektivin maraqlarının milli maraqlardan irəli keçmədiyi aksiomunu hər kəs bilir. Amma deyəsən bu düstur ABŞ-da bir o qədər də keçərli deyil.

Nensi Pelosinin Ermənistana səfəri bütün kartları açdı. Regionda gərginliyin olmasında maraqlı olan qüvvələrin kimliyinə bir daha aydınlıq gətirildi. O da məlum oldu ki, bəzi dünya gücləri Cənubi Qafqaz regionunda möhkəmlənmək üçün müharibə yolunu seçir, ya da haqsız olan, işğal siyasəti yürüdənin yanında olmaqla zor dilində danışmağa üstünlük verirlər. Məsələnin başqa bir tərəfi də var ki, bunu daha çox ermənilərin, Ermənistan rəhbərliyinin bilməsi lazımdır. ABŞ Konqresinin Nümayəndələr Palatasının sədri Nensi Pelosi heç də Ermənistana dəstək vermək, bu "zavallı" millətin yanında olmaq üçün İrəvana gəlməyib. Onun niyyəti başqadır. Nensi Pelosinin erməni lobbisinin maraqlarına xidmət edən fəaliyyəti, regionda gərginliyinin yaradılmasına və bundan istifadə edərək ABŞ-da keçiriləcək seçkilərdə ermənilərin səsini qazanmağa hesablanıb. Bu səfərlə Konqresin spikeri ABŞ-ın Azərbaycan ictimai rəyində onsuz da aşağı olan nüfuzunu daha da zəiflətdi. Pelosinin Ermənistana səfəri, keçirdiyi görüşlərdə ölkəmiz haqqında dedikləri Azərbaycan-ABŞ münasibətlərinin ruhuna, bu günə qədərki ikitərəfli əlaqələrimizə ciddi zərbə vurdu. Ermənistanın 30 illik işğalçılıq siyasətinə "dur" deməyən, bir dəfə də olsun bu işğalı pisləməyən Vaşinqton 44 günlük müharibədən sonra bölgədə yaranmış yeni reallıqları qəbul etmək istəmir. Halbuki Azərbaycan beynəlxalq hüququn bütün norma və prinsiplərinə uyğun olaraq öz ərazilərini işğaldan azad edib. Bununla yanaşı Rusiyanın və Avropa İttifaqının təşəbbüsü ilə keçirilən danışıqlarda əldə edilmiş razılaşmaları tanımadığını büruzə verir, üstəlik də ATƏT-in Minsk qrupunun prosesə qaytarılmasının vacibliyini diqtə etməyə çalışır. Amma ABŞ-da onu da bilməmiş deyillər ki, regional problemlərin həllində kənar qüvvələrin iştirakı bir o qədər də effektiv alınmır.

ABŞ-ın məqsədlərindən biri də Cənubi Qafqaz regionunda itirilmiş nüfuzunu bərpa etməkdir. Amma atdığı yanlış addımlar səbəbindən bunu hələlik bacarmır. İlk öncə insanları inandırmalıdır, dövlətləri əmin etməlidir ki, onun atdığı addımlarda qərəz yoxdur və bitərəf qalmaqda davam edəcək. Dünya gücləri hesab edilən ABŞ, Rusiya və Fransanın Minsk qrupunda təmsilçiliyi münaqişə tərəflərində ümid yaratsa da zaman keçdikcə bütün ümidlər ölməyə, problemin çözümündə yeni oyunçuların axtarılmasına yönəlik addımların atılmasına başlandı. Nəticədə BMT tərəfindən qəbul edilmiş qətnamələrin icrasını Azərbaycan təkbaşına icra etməli oldu, erməni silahlı qüvvələri Azərbaycan torpaqlarından qovuldu və Qarabağın status "cəhənnəmə" getdi. Bu gün isə fəaliyyətsiz və fərsiz Minsk qrupunun iki həmsədr ölkəsi reallıqla barışmaq istəmədiklərini açıq-açığına bildirirlər. Belə olan halda məlum olur ki, sən demə hər iki ölkə Minsk qrupunda sadəcə, münaqişəni həll etməmək, ən azından ləngitmək üçün fəaliyyət göstəriblər. Yoxsa, Fransaya, yaxud ABŞ-a nə düşmüşdü ki, öz adlarını biabır edib Minsk qrupunun işini nəticəsiz bitirsinlər.

N.Pelosinin səfəri həm də ənənəvi ermənipərəst siyasətini davam etdirmək, Ermənistan üzərindən regionda müdaxilə siyasətini artıqmaq, Minsk qrupunun fəaliyyətini bərpa etməklə münaqişəni daha bir neçə on il sürdürməkdir. Bu səfərdən və eyni zamanda Fransanın BMT-də TŞ-da sərhəd toqqoşmasını gündəliyə gətirməsindən sonra Azərbaycan ABŞ və Fransaya necə inanan bilər? Hazırda Fransa və ABŞ bu kimi faydasız və provokativ addımlardansa Brüssel gündəliyini dəstəkləmədilər. Əksinə, Fransa və ABŞ Ermənistanı qızışdırır və sülh gündəliyinin irəli getməsinə imkan vermirlər. Şarl Mişel və Aİ-nin fəaliyyətinə geosiyasi qısqanclıqla yanaşırlar. Bir tərəfdən Minsk qrupunu canlandırmağa çalışır, digər tərəfdən Ermənistana əsassız ümidlər verirlər. 31 avqustda Brüssel görüşündə real nəticələrin olmaması bu siyasətin nəticəsi idi. Bundan cəsarətlənən Ermənistan sülh gündəliyindən imtina etdi və təxribatlara əl atdı. ABŞ Nümayəndələr Palatasının spikeri ölkəsində ən qatı ermənipərəst siyasətçilərdən biri kimi tanınır.

Ermənistana gələn nümayəndə heyətinin tərkibində Konqresin məhz ermənipərəst üzvlərinin olması bunu nümayiş etdirir. Qarşıdan ABŞ-da Konqresə ortamüddətli seçkilər dövrü gəldiyini nəzərə alaraq, N.Pelosi də bu səfərdən ös siyasi məqsədləri və ABŞ-dakı erməni lobbi dairələrinin dəstəyini qazanmaq üçün istifadə edir. ABŞ-ın daxili siyasi gündəliyində olan siyasi məsələlərin və lobbi maraqlarının Ermənistan üzərindən Cənubi Qafqaz regionuna daşınması qəbuledilməzdir. Təəssüflər olsun ki, ABŞ Nümayəndələr Palatasının spikerinin bu açıqlaması baş vermiş hadisələrə obyektivlikdən uzaq, qərəzli və birtərəfli yanaşmanı əks etdirir. Ədalətdən danışan Pelosi bu vaxta kimi Azərbaycana qarşı Ermənistanın təcavüz, işğalçılıq siyasəti, ərazilərinin 30 ilə yaxın davam edən işğalı, yüz minlərlə azərbaycanlının etnik təmizlənməsi, milyondan çox azərbaycanlının öz ata-baba yurdlarından didərgin düşməsi və Ermənistanın məsuliyyət daşıdığı digər bu kimi ağır cinayətlərlə bağlı məqsədli şəkildə heç bir mövqe nümayiş etdirməyib.

Pelosinin Ermənistanda söylədikləri erməni təbliğatı əsasında verilmiş açıqlama kimi dəyərləndirilməlidir və bu Ermənistala Azərbaycan arasında hal-hazırda münasibətlərin normallaşması istiqamətində atılan səylərə ciddi zərbədir və ümumilikdə bu regionda gərginliyin daha da artmasına xidmət edir.

Bu gün Ermənistanda siyasi dairələrdə bir fikir daha çox müzakirə olunmaqdadır, Ermənistan qeyri-regional dostları iləmi, yoxsa yaxln qonşuları ilə dil tapmalıdır. Analitiklərin əksəriyyəti uzaq qonşuya bel bağlamanın ağır nəticələri barədə danışaraq bundan sonra kimsənin əlində oyuncağa çevrilməmək fikrinə fokuslanacaqlarını düşünürlər. Bildirilir ki, ölkə hakimiyyəti də daim günahkarları tapmağa çalışan piyonlardır. Əlbəttə, Ermənistanda vəziyyət kifayət qədər ağırdır. Məlum olub ki, region müxtəlif geosiyasi oyunçuların maraqlarının toqquşduğu bir növ yol ayrıcına çevrilib. Ermənistanda son rəqəmlər açıqlandıqca məlum olub ki, son toqquşmalarda 300-ə yaxın insan yaralanıb, 20 erməni hərbçisi əsir götürülüb. Ölən və itkin düşənlərin sayı 207-yə çatıb. Bu barədə baş nazir Nikol Paşinyanın sədriyi ilə keçirilən Ermənistan Təhlükəsizlik Şurasının iclasının yekunlarına dair bəyanatda deyilir.

Beləliklə, Ermənistan təxribat etdi və alacağını aldı, burnu əzildi, yaralı, ölü və əsirlərinin birlikdə sayı 527-ni ötdü. Bundan sonra Ermənistan silahlılarının nişangahını bir daha Azərbaycan tərəfə tuşlayacağına inanmaq istəməzdik. Yox, əgər hadisələr təkrarlanarsa

***V.VƏLİYEV***

# Pelosinin ermənipərəst mövqeyinin səbəbi nədir?

**"Ermənistanın Azərbaycana qarşı təxribatları nəticəsində baş vermiş toqquşmaların fonunda istər beynəlxalq, istərsə də regional güclərin hərəkətə gəldiyi göz önündədir". Bu sözləri SİA-ya açıqlamasında politoloq Rəşad Bayramov deyib.**



**POLİTOLOQDAN MÜNASİBƏT**

Onun sözlərinə görə, müşahidələr onu deməyə əsas verir ki, elə təxribatlarda da əsas məqsəd məhz regionda marağı olan ayrı-ayrı oyunçuların aktivləşməsinə nail olmaqdan ibarət olub: " 16 iyulda Birləşmiş Ştatlar Mərkəzi Kəşfiyyat İdarəsinin rəhbəri Uilyam Bernsin rəhbərliyi altında nümayəndə heyətinin qəfildən İrəvana səfər etməsi, bunun ardınca sentyabrın 10-da ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Filip Rikerin regiona səfərinə məhz Ermənistandan start verməsi və bunun ardınca heç bir həftə keçməmiş ABŞ Nümayəndələr Palatasının spikeri Nensi Pelosinin xüsusi missiya ilə Ermənistana gəlməsi onu deməyə əsas verir ki, ABŞ özünün Cənubi Qafqaz siyasətinə dəyişikliklər etmək ərəfəsindədir. Baş verən toqquşmalar və münasibətlərin gərginləşməsi isə bunun üçün əsas fürsətdir. Hərbi təxribatın Qarabağda yox, Ermənistan-Azərbaycan sərhədində baş verməsi, Ermənistanın rədd cavabını alacağını bilə-bilə KTMT-yə hərbi yardım üçün müraciət etməsi, Paşinyanın Putinlə üz-üzə gəlməmək üçün ŞƏT-in Səmərqənd sammitinə getməməsi, Ermənistan Parlamentinin spikeri A.Simonyanın atəşkəsin əldə edilməsində aparıcı rolun Rusiyaya deyil, məhz ABŞ-a məxsus olması ilə bağlı bəyanatları, bunun ardınca isə Ermənistanın artıq digər ölkələrdən silah alacağına dair açıqlamalar onu deməyə əsas verir ki, bütün bunlar anti-Rusiya əhval-ruhiyyəsini yaradaraq, Ermənistanın üzünü Qərbə tərəf çevirməyi nəzərdə tutan xüsusi əməliyyatın tərkib hissələridir. ABŞ yaxşı başa düşür ki, Rusiya bu mərhələdə Ermənistana dəstək verməklə Azərbaycan və Türkiyə ilə üz-üzə gəlməyəcək və xüsusilə də indiki halda, yəni Ukraynada savaş davam etdiyi müddətdə özü üçün ikinci cəbhənin açılmasına imkan verməyəcək. Odur ki, ABŞ bu imkandan maksimum bəhrələnərək Ermənistanda anti-Rusiya ovqatının pik həddə çatmasına nail olmaq istəyir. Nəticə etibarilə Bayden hakimiyyəti həm Ermənistanı Rusiyadan qoparmağa çalışır, həm də Ermənistanın maraqlarının müdafiəçisi qismində çıxış etdiyi görüntüsünü yaradaraq ABŞ-ı erməni lobbisini ələ almağa çalışır".

Politoloq sözlərinə əlavə edərək bildirib ki, ABŞ-da növbəti prezident seçkiləri 2024-cü ilin noyabrında keçiriləcəyi məlumdur: " Lakin ABŞ-da prezidenti müəyyənləşdirən səsvermə yalnız son seçkilər deyil. Ölkə qanunvericiliyinə görə, prezidentə mandatı birbaşa xalq yox, onun seçdiyi nümayəndələr verir. Nümayəndələrin 1/3-i isə bu il noyabrın 8-də keçiriləcək ara seçkilərdə müəyyən olunacaq. Getdikcə nüfuzunu itirən və yol açdığı qlobal böhrana görə bundan sonra da eyni mənfi trendi davam etdirəcəyi gözlənilən Demokratlar ara seçkilərinə ciddi hazırlaşmalıdırlar. Üstəlik, ara seçkilərdə iştirak edəcək ştatlardan biri də Kaliforniyadır. Kaliforniyada isə çoxlu erməni seçici var. Bu mənada Nensi Pelosinin İrəvan səfərinin ən önəmli səbəblərindən biri həm də ermənilərin səsini qazanmaqdan ibarətdir. Pelosinin ermənipərəst mövqeyi çoxdan məlumdur və ümumiyyətlə Bayden administrasiyasında çoxlu sayda Nensi kimi zaman-zaman erməni mövqeyindən çıxış edən şəxslər var. Odur ki, indiki həssas dönəmdə, regionda yaranmış gərgin vəziyyətdən istifadə edərək vəzifəsinin müddətinin başa çatmasına iki ay qalan Pelosi "erməni dostu" obrazını gücləndirmək istəyir. Onun rəsmi görüşlərdən və etdiyi açıqlamalarından öncə qondarma "erməni soyqırımı" abidəsi önündə Oskarlıq perfomans sərgiləyərək göz yaşları tökməsi də bunun bariz sübutudur. Əslində, 1992-ci ildə ölkəmizə qarşı hərbi təcavüz edən Ermənistanı deyil, təcavüzə və işğala məruz qalan Azərbaycanı cəzalandırmaq üçün "Azadlıq aktına 907-ci düzəliş" qəbul edən ABŞ Konqresindən və onun xanım spikerindən ədalət və beynəlxalq hüquqa hörmət gözləməyin mənası da yoxdur. Lakin buna baxmayaraq, Pelosinin bu cür təhrikçi və bölgədə sülhə və təhlükəsizliyə böyük zərbə olan, revanşistləri daha da qızışdıran, iki xalq arasında nifrət və düşmənçiliyi körükləyən bəyanatı heç bir halda qəbul edilən deyil və ilk növbədə elə ABŞ-ın özünə ziyandır. Çünki onun sərgilədiyi mövqe birbaşa ABŞ-Azərbaycan münasibətlərinə ciddi zərbə vurur və Azərbaycan istiqamətində Fransa ilə yanaşı ABŞ-ın da mövqelərini zəiflədir. Rəsmi Vaşinqton anlamalıdır ki, münaqişələrin artdığı bir dünyada ABŞ-ın ən böyük "erməni dostu" olması və bundan sonra Azərbaycanı regionda vacib və əvəzolunmaz tərəfdaş adlandırması heç də səmimi səslənmir. Nensi Pelosinin ermənilərin daha çox xoşuna gəlmək üçün bir az da irəliyə gedərək başqa "dəhliz" sözünü qəbul etmədiyini, bir dəhliz var, o da Laçın dəhlizidir, deyərək Zəngəzur dəhlizinin əleyhinə olduğunu qeyd etməsinin ardınca ABŞ dövlət katibi Antoni Blinkenin İlham Əliyevə zəng edərək nəqliyyat dəhlizlərinin açılması istiqamətində səylərin davam etdirilməsinin vacibliyini qeyd etməsi bir-birinə tərs olan fikirlərdir və yaxşı olardı ki, ABŞ dövlət katibi bu fikirlərini xanım Pelosi ilə də bölüşsün və ona Zəngəzur dəhlizinin nəqliyyat dəhlizlərinin ən vacib elementi olduğunu başa salsın".

Son olaraq politoloq Rəşad Bayramov qeyd edib ki, Nensi Pelosinin səfərinin Ermənistan üçün müsbət nəticələri olacağını düşünmürəm: " Ermənistan ən yaxşı halda müəyyən maliyyə yardımı ala bilər, lakin istər hərbi, istərsə də iqtisadi baxımdan tamamilə Rusiyadan asılı olab bir dövlətin indiki halda Rusiyadan tamamilə üz döndərən davranış sərgiləməsi Ermənistan üçün olduqca acı nəticələrə gətirib çıxara bilər".

***Qönçə Quliyeva***



# Erməni terrorizminin daha bir ünvanı:

# Xəlifəliçay

20 sentyabr 1991-ci il. Xankəndi şəhərində Şuşa-Ağdam yolunu birləşdirən Xəlifəliçay üzərindəki körpü partladıldı. Erməni terrorizminin daha bir ünvanı. Terrorizm həm bütün forma və təzahürlərinə, həm də miqyasına görə ən qəddar, qeyri-insani hadisə olaraq qlobal problemə çevrilib. Bir tərəfdən kütləvi insan qırğınına səbəb olması, digər tərəfdənsə maddi-mənəvi dəyərlərin məhvinə səbəb olur. Sivil dünyada terrorizm nə qədər qəbuledilməz olsa da təəssüflər ki, bu hal ilə bərabər yaşayırıq. Terror aktları insan tələfatları ilə nəticələnir və güclü psixoloji gərginliklər yaşanılır. Terrorizm haqqında birmənalı tərif mövcud olmasa da, mütəxəssislərin əksəriyyətinin qənaətinə görə siyasi, dini, ideoloji və iqtisadi məqsədlərə çatmaq üçün qeyri-qanuni əməllərin, zorakılığın, gücün, hədənin tətbiq olunmasıdır. Əlbəttə ki, real həyatda terror aktlarından daha çox günahsız kütlə, dövlət adamları ziyan çəkir. Müasir dünyanın toqquşduğu əsas və təhlükəli problemlərdən olan terrorizm daha çox siyasi, etnik, dini və s. zəmində yaranır. Bu siyasi, iqtisadi və mənəvi ziyanla nəticələnir və hər bir dövlət, hər bir insan bunun qurbanına çevrilə bilər. Azərbaycan da terrordan, xüsusən siyasi terrordan əziyyət çəkən ölkələrdəndir. "Böyük Ermənistan" xülyası ilə yaşayan ermənilərin XX əsrdə azərbaycanlılara qarşı ilk kütləvi qırğını 1905-1907-ci illərə təsadüf edir. Həmin vaxt Bakıda, Naxçıvanda, Zəngəzurda, İrəvanda və digər tarixi Azərbaycan torpaqlarında ermənilər tərəfindən minlərlə azərbaycanlı amansızcasına qətlə yetirilib. Təkcə 1917-ci ilin dekabrından 1918-ci ilin mart ayına qədər Andranikin rəhbərliyi altında erməni qoşun hissələrinin fəal iştirakı ilə İrəvan qəzasında 32 kənd, Eçmiədzin qəzasında 84 kənd, Nor-Bəyazid qəzasında 7 kənd, ümumiyyətlə, 197 kənd dağıdılmış, sakinlərin bir qismi qətlə yetirilmiş, digər bir qismi isə öz doğma ev-eşiklərindən didərgin düşmüş, əmlakları talan olunmuş, evləri isə yerlə yeksan edilmişdir. 1918-ci ilin yazında Bakıda və Bakı quberniyasının müxtəlif bölgələrində - Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə Bakı Soveti və "Daşnaksütyun"dan olan erməni silahlı dəstələri azərbaycanlılara qarşı dəhşətli qırğınlar törədiblər. Rəsmi mənbələrə əsasən, o zaman soyqırımı nəticəsində 12 minə yaxın azərbaycanlı qətlə yetirilib, on minlərlə insan itkin düşüb.

### ACI HƏQİQƏTLƏR STATİSTİK RƏQƏMLƏRDƏ

1992-ci ilin fevralında 25-dən 26-na keçən gecə erməni terrorçuları tərəfindən "Xocalı soyqırımı"nın törədilməsi insanlıq əleyhinə, bəşəriyyətə qarşı cinayətdir. Bu soyqırım aktını törədən terrorçulardan biri, Ermənistanın sabiq prezidenti Serj Sarkisyan Avropa Birliyindəki çıxışında da etiraf etmişdir ki, "Xocalıya qədər elə hesab edirdilər ki, biz dinc əhaliyə, qadınlara və uşaqlara rəhm edərik. Amma biz bu stereotipi sındırdıq". Bu "səmimi etiraf" ermənilərin terrorçuluq siyasətini bir daha bəyan etmiş oldu.

Düşmən əhatəsində olan şəhərdə qalmış təqribən 2500 nəfər əhali Ağdam rayonuna çatmaq ümidi ilə oranı tərk etməli olub. Ancaq bu istək baş tutmayıb. Şəhəri yerlə-yeksan etmiş erməni silahlıları və 366-cı motoatıcı alayın hərbçiləri dinc əhaliyə divan tutublar. Bu qırğın nəticəsində 613 nəfər həlak olub, onlardan 63 nəfəri uşaq, 106 nəfəri qadın və 70 nəfəri qocalar idi. 8 ailə tamamilə qətlə yetirilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib, 487 nəfər yaralanıb ki, onlardan 76 nəfəri uşaq idi. Faciə zamanı 1275 nəfər əsir götürülüb, 150 nəfər itkin düşüb. Xocalıdan əvvəl və sonra da əzəli torpaqlarımızda ermənilər tərəfindən neçə-neçə faciə törədilib. Zaman-zaman Azərbaycan qarşı ermənilər tərəfindən terror aktları törədilmiş və bunun acı nəticələrini yaşamışıq. Düz 31 il bundan əvvəl 20 sentyabr 1991-ci ildə Xankəndi şəhərində Şuşa-Ağdam yolunu birləşdirən Xəlifəliçay üzərindəki körpü partladılması nəticəsində cinayəti törətmiş Artur Amramyan həbs olunmuş və 15 il müddətində azadlıqdan məhrum olmuşdur. Bu, o illərdə Xankəndidə törədilmiş ilk və son terror deyildi. Qısa bir şəkildə son xronologiyaya nəzər salsaq görərək ki, şəhərdə terror, sui-qəsd və hücum aktları kifayət qədər törədilib. 1988-ci ildə Ermənistan SSR-dən gəlmiş erməni millətçi emissarlarının təşkilatçılığı ilə Xankəndidə ermənilər Dağlıq Qarabağın Azərbaycandan qoparılaraq Ermənistana verilməsi tələbi ilə icazəsiz mitinqlərə başlanılıb. İlk mitinq 13 fevral 1988-ci ildə Xankəndinin mərkəzi meydanında təşkil olunub. Bundan bir həftə sonra, 20 fevralda Dağlıq Qarabağ Ali Sovetindəki erməni deputatlar qanunsuz olaraq vilayətin Azərbaycanın tərkibindən ayrılaraq Ermənistan SSR-ə birləşdirilməsi məsələsini qaldırıblar. Bu, Dağlıq Qarabağın azərbaycanlı icmasının haqlı narazılığına səbəb olub. Bundan sonra sovet rəhbərliyi vəziyyəti stabilləşdirmək üçün Xankəndinə Daxili Qoşunların batalyonunu göndərib. Həmin aylardan etibarən ermənilərin azərbaycanlılara qarşı terror hərəkatı başlanıb. Xankəndi erməniləri Şuşaya gələn su kəmərini zəhərləməyə cəhd ediblər. 20 fevralda Xankəndi mərkəzi xəstəxanasında praktika keçən iki azərbaycanlı tələbə qız ermənilər tərəfindən zorlanıb. 2 gün sonra isə Ağdamdan yüzlərlə azərbaycanlı gənc bunun qisasını almaq üçün Xankəndinə yürüş edib və onların qarşısı Əsgəranda silahlı ermənilər və rus əsgərləri tərəfindən kəsilib. Baş verən qarşıdurmada iki azərbaycanlı qətlə yetirilib və çoxlu sayda insan isə yaralanıb. Bu gənclər sonradan illərlə davam edəcək Dağlıq Qarabağ münaqişəsinin ilk qurbanları olublar. Bu bir daha ermənilərin terrorçu olduğunu sübut edən dəlillərdir. Belə ki. 1988-ci ilin yayında Xankəndi Uşaq Xəstəxanasında həkim-rentgenoloq işləyən əslən ağdamlı şəxs ermənilər tərəfindən xəstəxananın həyətində döyülərək, qətlə yetirilib. 28 iyun 1989-cu il tarixində ermənilər tərəfindən Badara qəsəbəsindən Meşəliyə gedən şosse yoluna qoyulmuş partlayıcı qurğunun işə düşməsi nəticəsində maşındakı 6 nəfər mülki azərbaycanlı ağır yaralanıb. 1990-cı il may ayında Bakı-Xankəndi qatarı və Xankəndi-Ağdam avtobusu partladılıb. 1990-cı ilin iyununda xankəndili Əşrəf və Ələmşah adlı iki qardaş 336-cı moto-atıcı alayın qarşısında diri-diri yandırılıb. 5 sentyabr 1991-ci ildə Xankəndidəki radio-televiziya stansiyası partladılıb. Bu günə kimi bu hadisədə əli olanların adları məlum deyil. 1991-ci il yanvarın 5-də Kərkicahan ərazisinə ermənilər tərəfindən hücumlar olunur. Beləcə, qəsəbə 3 nəfəri itirir. Lakin erməni tərəfindən də, çoxlu itkilər olur. 1991-ci il 9 yanvar tarixində Baqmanyan Akop Qavruşoviç və Antonyan Artuşa Qriqoroviç tərəfindən DQMV-nin Daxili İşlər İdarəsinin rəisi general mayor V.Kovalyovun həyatına sui-qəsd edilmişdir. Buna səbəb kimi onun azərbaycanlıları müdafiə etməsi və sui-qəsdin yuxarı dairələrdən sifariş olunması göstərilmişdir. 1989-cu ilin oktyabr ayında evinə qayıdan iki nəfər Kərkicahan sakini güllələnmişdir. 1991-ci il fevralın 4-də ermənilər azərbaycanlılar yaşayan bir neçə binanı partladır, güllələyiblər. 1991-ci ilin yayında Xankəndi-Şuşa avtomobil yolunda SSRİ DİN Daxili Qoşunlar mayoru L.Xomiç qətlə yetirilmişdir. 24 fevral 1991-ci ildə Şuşadan Ağdam rayonuna gedən "PAZ-3205" dövlət nömrə nişanlı avtobus şəhər ərazisində partladılmış, nəticədə 7 nəfər vəfat etmişdir. Həmçinin ermənilər bu zaman ərzində oğurluq və talançılıq işlərinə də, əl atıblar. 1994-cü il 18 mart tarixində Xankəndi səmasında erməni terrorçuları tərəfindən İranın Hərbi Hava Qüvvələrinə məxsus Herkules tipli təyyarə vurulmuş, 36 nəfər həlak olmuşdur.

### MƏNFUR QONŞULARIMIZIN ÇİRKİN XİSLƏTLƏRİ

Bu və ya digər terror aktları bir daha göstərir ki, erməni terrorlarının ölkəmizdə sayı-hesabı yoxdur. Mənfur qonşularımız bizə qarşı məkrli, çirkin niyyətlərini həyata keçirmişdilər. 8 sentyabr 1984-ci ildə Bakıda 106 saylı sərnişin avtobusunun erməni terrorçusu Henrix Vartanov tərəfindən partladılması zamanı iki uşaq anası olan Surxalizadə Fatma həlak olmuş, üç nəfər yaralanmışdır. Hadisə o vaxt SSRİ-nin xüsusi xidmət orqanları tərəfindən terror aktı kimi deyil, onunla Vartanovla müdiriyyət arasında olan narazılıq kimi qiymətləndirildi. Hadisənin təşkilatçısı olan Henrix Vartanov psixi xəstə kimi qəbul edilərək, həbsdən azad edilib məcburi psixi müalicəyə göndərildi. Əlbəttə ki, bu, ermənipərəst qüvvələrin himayəçilərinin əməlləri idi. 16 sentyabr 1989-cu ildə erməni terrorçuları Tbilisi-Bakı reysi ilə işləyən sərnişin avtobusunu partlatmışlar. 5 adam həlak olmuş və 25 nəfər yaralanmışdır.13 fevral 1990-cı ildə Yevlax-Laçın yolunun 105-ci km-də "Şuşa-Bakı" marşrutu ilə hərəkət edən avtobus partladılmış, nəticədə 13 nəfər ağır yaralanmışdır. 24 mart 1990-cı ildə "Noraşen-Bakı" yolunun 364-ci km-də dəmir yolu partladılmış, nəticədə teplovoz və 3 vaqon partladılmış, 150 metrdən çox dəmir yolu xətti yararsız hala düşmüşdür. Bu siyahını artırmaq üçün əsas dəlillər çoxdur. Hər bir terror aktında insan ölümü diqqəti çəkir. Bu terror aktları qəddar, faşist xislətli əməllərdir ki, xalqımız bunu yaşayıb. 44 günlük Vətən müharibəsində də xalqımız ermənilərin təcavüzkar siyasəti ilə üz-üzə qaldı. Müharibə getməyən ərazilərimizdə Gəncədə, Mingəçevirdə, Bərdədə yaşından asılı olmayaraq uşaq da, gənc də, qoca da bu terrorların acı nəticəsini yaşamış oldu. Neçə-neçə qurbanlarımız oldu. Bu erməni faşist ideolgiyasıdır. Faşist düşmənin təfəkkürü, mövqeyidir ki, bu terrorlardan xalqımız əziyyət çəkir. Yeri gəlmişkən qeyd edək ki, "Daşnaksütyun"un 1892-ci ildə Tiflisdə keçirilən ilk qurultayında türklərə qarşı sui-qəsdlərin təşkil olunması barədə qəti qərar verilib. Məhz bu qurultaydan sonra "Türkü, kürdü hər yerdə, hər bir şəraitdə öldür, sözündən dönənləri, erməni xainlərini öldür, intiqam al!" əmri yayılıb. Bir şüara çevrilmiş bu fikir erməni kimliyini, məqsədini ortaya qoyur. Əlbəttə ki, Azərbaycan dövləti daima terrora qarşı olan dövlətdir və bununla bağlı bir çox konstruktiv tədbirlər həyata keçirib. Buna misal olaraq "Terrorçuluğa qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanunu"nu və "Terrorizmin maliyyələşdirilməsi ilə mübarizə haqqında" Beynəlxalq Konvensiyaya Azərbaycan Respublikasının qoşulması barədə Azərbaycan Respublikasının Qanunu"nu göstərmək olar. Terrorizm müasir dövrün ən təhlükəli təzahürlərindən biridir ki, müasir dünya, xüsusilə də, Azərbaycan bunun acı nəticələrini hələ də yaşamaqdadır. Dünyanın gözü qarşısında.

***Zümrüd BAYRAMOVA***




## "Onların mövqeyi bizim üçün önəmli deyil"

"Təəssüflər olsun ki, radikal müxalifət daxili məsələlərlə yanaşı, milli məsələlərdə də fərqli mövqe tutur. Bu onu göstərir ki, onlar Azərbaycan hökumətinin apardığı siyasətə sevinmirlər. Çünki bu gün aparılan əməliyyatlar birbaşa ölkəmizin maraqlarına uyğundur". Bu sözləri SİA-ya açıqlamasında siyasi ekspert Vüqar Əhmədov deyib. Onun sözlərinə görə, bu məsələdə milli həmrəylik olmalı və müxalifət də eyni mövqedən çıxış etməlidir: "Bu gün Ermənistan məğlub vəziyyətdədir. Orada müxalifətin etirazını başa düşmək olar. Lakin Azərbaycan bu gün bu istiqamətdə irəliyə gedir. Onlar nəyə görə bu məsələdə ermənipərəst mövqe tuturlar?".

Vüqar Əhmədov sözlərinə belə davam edib: "Buradan da göründüyü kimi bunların məqsədi heç də torpaqların azad olunması istiqamətində deyil. Onlara bu lazım deyil. Burada siyasi mövqeyindən asılı olmayaraq heç bir xarici mövqelərin təsirinə düşmədən, vahid mövqedə olmaq lazımdır. Onların mövqeyi bizim üçün önəmli deyil".

***Ayşən Vəli***



# Ailə - həvəs, yoxsa məsuliyyət?

**Tarix boyu Azərbaycanda ailə müqəddəs hesab olunub. Qədim keçmişə malik xalqımızın tarixi qədər qədim dəyərləri də var. Bu dəyərləri xalqımız həmişə müqəddəs bilib qorumağa çalışıb. Bu gün bizim vətənə, əcdadlarımızın bizə miras qoyduğu dəyərlərə olan sevgimiz, hörmətimiz buradan qaynaqlanır. Bəs görəsən, tarixi köklərimizdən gələn bu xüsusiyyətləri kifayət qədər qoruya bilirikmi? Təəssüf ki, ailə institutumuz, ailə dəyərlərimiz əvvəlki kimi sağlam deyil. Tarixən xalqımızın yüksək mənəvi dəyərlərinin qoruyucusu, genofondumuzun daşıyıcısı kimi milli inkişafımızda mühüm rol oynayan və xalqımızın gələcək nəsillərə bəxş etdiyi ailə institutu aşınmaqdadır.**

Dahi Azərbaycan alimi Nəsrəddin Tusi özünün "Əxlaqi-Nasiri" əsərində yazır ki, insanlar tək yaşaya, inkişaf edə və kamala çata bilməzlər. Onların bir-birinə, bir ailəyə ehtiyacı var. Bir sözlə, qadınla kişinin bəzi istedadları yalnız ailə qurduqdan sonra lazım olan həddə çatır. Çünki insanın bir çox ehtiyacı ailədə təmin olunur.

Ailənin təşkilində ən əsas və ilk mərhələ düzgün niyyət və məqsədli addım atmaqdır. Buna görə də, müqəddəs ailə təməli qoymaq istəyənlər səmimiyyət və sədaqət yolunu seçməlidirlər. Qurulacaq ailə milli-mənəvi, dini-əxlaqi faktorlara söykənməlidir. Yəni bir insan ailə qurarkən bunun necə məsuliyyətli bir iş olduğunu dərk etməli və necə bir insanla ailə həyatı quracağını müəyyənləşdirməlidir. Kiçik dövlət sayılan ailə insanlar arasında birinci ictimai formadır. Ailənin gücü və mahiyyəti onun sosial birlik, kiçik sosial qrup kimi xarakterizə edilməsi ilə bağlıdır. Ailə millətimizin gələcək fərdinin formalaşdığı bir mühitdir. İnsanın real şəxsiyyəti ən bariz şəkildə ailədə formalaşır. Uşağa davranış qaydalarını mənimsədən, sosiallaşmasını təmin edən ilk məktəb də ailədir. Çünki ailənin quruluşu, təməl prinsipləri və fəaliyyəti cəmiyyətin fəaliyyəti ilə bir bütünlük təşkil edir.

Tarixdə əbədi izlər buraxmış böyük millətlərin ən üstün keyfiyyətləri sağlam bir ailə quruluşuna malik olmalarıdır. Ailədə hər kəs fərqli bir şəxsdir. Ancaq onları qan bağlılığı, ailə dəyərləri bir arada tutur. Həyatda ən mühüm qərarlardan biri ailə qurmaqdır. İnsanın həyatda böyük seçimlər üçün fürsətləri çox olmur. Yetkinlik həddinə çatmış insan ağıl və iradəsi ilə mühüm mövzularda seçim aparmalıdır. Lakin elə insanlar var ki, valideynlərin məcburiyyəti ilə özlərinə uyğun olmayan insanla ailə qurmağa məcbur olurlar.

Bu dövrdə düzgün seçim aparmış gənc böhran yaşamır, çaşqınlıq içində olmur. Düzgün seçim insanın həyatını behiştə çevirir. Heç bir başqa seçim insanı belə xoşbəxtliyə çatdıra bilməz. Ailə mövzusuna gəldikdə düzgün seçimin əhəmiyyəti azalmır. Sırf evlilik yaşı gəlib deyə uyğun olmayan biri ilə ailə qurmaq fikrindən qaçmaq lazımdır. Düzgün həyat yoldaşı seçimi insan həyatını şirinləşdirir.

Quran ayələrindən də aydın olur ki, gənclik dövrü olduqca həyati əhəmiyyətli bir dövrdür. İnsanda yetkinlik əlamətləri görünəndə o özünü ailə həyatına hazırlamalıdır.

Gənclərin yaşı artdıqca ailə qurmaq şəraiti ağırlaşır. Çünki artıq şəxsiyyət formalaşır, xasiyyətlər möhkəmlənir. Xarakteri, fikirləri dəyişmək çətinləşir. Yaş ötdükdən sonra ailə quranların bir-birinə uyğunlaşması çətin olur. Psixoloqlar bu fikirdədir ki, xarakter formalaşdıqdan sonra onu dəyişmək çətin olur.

Alış-veriş edərkən insanlar düşünür və ölçürlər. Həyatın ən vacib qərarlarından birini qəbul edərkən bir əşyanın alınmasında göstərilən diqqəti göstərməmək, evliliyi şansa buraxmaqdan başqa bir şey deyil.

## Bəs, doğru insanı necə seçə bilərik?

Bu gün xüsusilə gənclər evlənməyə çılğın xəyallar və gerçək olmayan gözləntilərlə başlayırlar. Evlənmək qərarında insanın xarakterinə, evlilikdən nə gözlədiklərinə, həyat fəlsəfəsinə və s. Ancaq varlı, yaraşıqlı və ya yüksək vəzifələr tutmaq nə o insanı nə yaxşı bir adam, nə də yaxşı bir qadın edir. Real olmayan pul dəyərləri və fiziki gözəllik kimi səbəblərdən təməli atılan evliliklər inkişaf etməməyə məhkumdur. Ancaq gerçək gözləntilər üzərində qurulan evliliklər, təməl möhkəm olduğu üçün gələcəkdə problemlər olsa da, özlərini toplayır. Evlilik uzun bir yoldur, gözləntilər də evliliyə aid olan mənanı müəyyənləşdirir. Evlilikdən yüksək gözləntilər, ər-arvad arasında yaşanan problemlərin ən vacib səbəblərindən biridir. Çünki evlilikdə yüksək gözləntilər qarşılanmır, insanda xəyal qırıqlığına səbəb olur. Buna görə də evlilik uzun bir yola çıxmaq kimi qəbul edilməli və pis və yaxşı günlərin ola biləcəyi hesablanmalıdır. Əhəmiyyətli olan, evliliyin paylaşım nöqtəsində necə yaşanacağını və ortaq dəyərlərin olub olmadığını bilməkdir. Bununla birlikdə, evlilik qərarında hər şeyin insanın nəzarəti altında olması və yüzdə yüz ahəng tapması mümkün deyil. İnsanlar gözlədiklərinin və hədəflərinin bir-biri ilə 70-80 % nisbətində uyğun olduğunu və bir-birlərini tanımaq haqqında kifayət qədər məlumata sahib olduqlarını düşünsələr, evlənməyə qərar verə bilərlər. Paylaşılan hədəflər və gözləntilər bir həyat yoldaşının digərinə hakim olmasına səbəb olmamalıdır. Hər iki tərəf özlərini azad hiss etməli və şəxsiyyətlərini yaşamalıdırlar. Həyat yoldaşları ümumi gözləntilər və hədəflər üçün enerji sərf edərkən, hadisələrə və münasibətlərə iki nəfər kimi baxmağı bacarmalıdırlar.

**Tənqidçi ekspert, kulturoloq Aydın Xan Əbilov** SİA-ya bildirib ki, bütün dünyada olduğu kimi Azərbaycanda da ailəı dəyərləri get-gedə müəyyən dəyişikliklərə məruz qalır: "İstər-istəməz ailə dəyərləri deformasiyaya uğrayır. Bildiyimiz kimi Azərbaycan cəmiyyətinin formalaşmasında ailələrin, nəsillərin böyük rolu olur. Azərbaycanda son illər az qala bağlanan nikahların yarısı pozulur. Bunun arxasında çox böyük problemlər dayanır. Amma bunun qarşısını almaq mümkünsüzdür. Çünki insanlar indiki dövrdə daha çox azad olmaq istəyirlər. Keçmişdə isə bu belə deyildi. Hazırda toylar biznes hadisəsinə çevrilib. Bu toylar nəticəsində qurulan ailələr daha tez dağılır.

Son vaxtlar baş verən cinayət hadisələrinin əsas səbəbi qadının kişini saymaması, gecə evə gəlməməsi kimi göstərilir. Azərbaycanda daha çox ailə qurarkən və ya boşanarkən tərəflər maddi tərəfdən düşünür. Düşünürəm ki, ailələrin formalaşmasında sərtləşmələrə getmək lazımdır".

Əvvəlki dövrlərə baxdıqda sevərək ailə quran insanların tək-tük olduğunu görmək olar. Daha çox görücü üsulu, ana, bacı, xalaların bəyənməsi ilə ailələrin qurulmasına üstünlük verilirdi. Maraqlısı budur ki, bu üsulla qurulan ailələr indiki sevgi üstündə qurulan ailələrə nisbətən daha möhkəm və uzunömülü olurdu. Belə olan halda hansı üsulla ailə qurmaq da insanı düşündürməyə bilmir.



Amma ailə xoşbəxtliyinin sirlərini təkcə məhəbbətlə izah etmək mümkün deyil. İnsanların təxminən 30 faizi bir-birini sevmədən ailə qururlar. Buraya ilk növbədə qohum və tanışlar, ana və bacılar vasitəsilə qurulan ailələr daxildir. Bir çox ailələr isə təsadüfi tanışlıq əsasında yaranır. Müəyyən mülahizə ilə bağlanan nikahlara da az təsadüf olunmur. Boşanmaya aid statistika göstərir ki, bu ailələrin bir qismi müəyyən vaxt keçdikdən sonra dağılır. Qarşılıqlı məhəbbət olmadan yaranmış ailələrin hamısı sonradan dağılır deyə bir qanun yoxdur. Hətta bir-birini sevmədən ailə qurmuş ər və arvadın bir çoxu sözün həqiqi mənasında xoşbəxt yaşayırlar. Onlar evlənəndən sonra bir-birinə sanki sevmək öyrədir və sağlam uşaqlar tərbiyə edirlər. İki insan arasında hörmət və bağlılıq olmadığı müddət məhəbbətin də ailəni qurtarma şansı sıfıra bərabərdir.

## Ailənin formalaşmasında hansı amil rol oynayır?

**Məsələ ilə bağlı "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova** bildirib ki, ailə təkcə sevgi deyil, vacib olan tərəflərin bir-birinə hörmət etməsidir: "Ana olmaq üçün ailə qurmaq fikri düzgün deyil. Çünki ana ola bilmək hissi olan, ana ola bilən şəxs heç də duyğusuz ola bilməz. Tərəflərin öz öhdəliklərini doğrulda bilib-bilməmək kimi davranışı ola bilər. Bu, hər iki cinsə aiddir. Əksər ailələrdə tərəflərin kənar təsirlərdən öz ailəsini müdafiə edə bilmir. Müstəqil qərarı olan şəxslərə müdaxilə çətin olur. İnsanlarda ailə məfhumu ailə xarakteri ilə tamamlanmalıdır. Hər kəsə hörmət edən, lakin ailəsini müdafiə etməyi bacaranlar yetişməlidir. Ailə məhz o vaxt ailə olur ki, kənar təsirlərə müqaviməti həmrəy formalaşdırmaqdır".



## Bəs, hansı insanlar bir-birinə daha uyğundurlar?

**Psixoloq Aytən Ələkbərovanın fikirlərinə görə, əvvəllər ailəni kiçik bir dövlət adlandırırdılar:** "Əgər, ailəni qoruya bilmiriksə, bu ailəyə kiçik dövlət deməyə dilimiz gəlmir. Ailələrdə yaranacaq hörmət, dəyər, inam, güvən nisbətdə çox azalıb. Ailə bir evdə yaşam tərzi deyil. Ailədəki insanlar bir-birini duy bilməli və bir-birinə hörmət edə bilməlidirlər. Bu gün yeni qurulan ailələr dağılır. Hansı ki, insanlar bir-birini sevmədən ailə qurublar. Əsasən bu, valideynlərin təkidi ilə olur. Qadına diqqət, bəyə isə hörmət lazımdır. Bu iki amil olmadıqda biz ailədən danışa bilmırik. Elə ailə yoxdur ki, söz-söhbət olmasın. Azərbaycanda ailə formatında dəyərdən, hörmətdən və həqiqi sevgidən başlayır. Dəyər və hörmət varsa, sevgi də var".



Xarici ekspertlərin araşdırmalarına görə, bir-biri ilə uyğun olan insanların evliliyi uzun illər davam edir. Nəticə olaraq, bu cütlüklər arasındakı boşanma nisbətinin cəmiyyətdəki boşanma ilə eyni olduğu görülmüşdür. Bu, ər-arvadın öz şəxsiyyətlərini yaşamaları və ortaq hədəflərə evlilikdəki şəxsiyyətlərin harmoniyasından daha çox oxşar bir hərəkət yolu ilə nail ola bilmələrinin daha vacib olduğunu göstərir. Bu səbəbdən evlənməyə qərar verən şəxs özünə "Evlilikdən nə gözləyirəm və nə etməliyəm?" deyə düşünməlidir.

## Fərqlər barəsində güzəştə getmək

Ənənəvi ailə quruluşunda fərqli mədəniyyətlərdən olan fərdlərin bir-biri ilə evlənməsi nadir deyil. Son illərdə ünsiyyət imkanlarının artması, fərqli mədəniyyətlərdən olan insanların eyni mühitdə görüşməsinə zəmin yaradıb. Xüsusilə internetin yayılması ilə fərqli və hətta əks mədəniyyət dəyərlərinə sahib insanların evliliyinin şahidi olduq. Ər-arvadın əsas məsələlərdə bərabər olması evlilik üçün idealdır. Kişilərin və qadınların hadisələrə, əşyalara və insanlara eyni gözlə baxma qabiliyyəti, bənzər olmasa da, oxşar mədəni dəyərlərə sahib olmaq sağlam münasibətlər üçün lazımdır. Çünki insanın düşüncə tərzi və zehni vəziyyəti, uşaqlıqda böyüdüyü mədəniyyətin təsiri ilə formalaşır və bunlar davranışında əks olunur. Mədəniyyət, bir insanın oturub durmasını, hətta danışmasını, yeməsini və ya içməsini müəyyənləşdirir. Yemək yeyərkən, söhbət edərkən və s. Əlbəttə, cəmiyyətdə necə davranacağını bilməyən birinin və bunları bilən birinin birlikdə yaşaması çətin olacaq. Bu baxımdan mədəni bərabərlik vacibdir.

***Arzu Qurbanlı***

# Xalq-dövlət birliyi faktoru xainlərin nəfəslərini kəsir!

**Söz yox ki, bütün bunlar bir daha xaricdə Azərbaycanın haqq işinə, milli dövlətçilik maraqlarına qarşı formalaşmış xəyanətkar dəstənin mövcudluğundan xəbər verir və gec, ya da tez onların hər biri hüquq, qanun qarşısında cavab verməli olacaqlar!**

Radikal müxalifət yenə də öz bulanıq və xainlik havasındadır. Əslində biz bu kimi xəyanətkar ünsürlərin dırnaqarası siyasətlərinə çoxdan bələdik və hər dəfə də onlar rüsvay və rəzil olaraq son anda öz qınlarına çəkilirlər. Lakin fakt budur ki, Qərb ölkələrində fəaliyyət göstərən erməni lobbisindəki ağalarından sifariş alan kimi dərhal ortalığa çıxır, dövlətin maraqlarına qarşı iyrənc fəaliyyətlərə başlayırlar. Biz bunu növbəti dəfə - sentyabrın 12-də və 13-də mənfur erməni təxribatının qarşısının alınmasından sonra da müşahidə etmədəyik. Gah müqəddəs şəhidlik adını özlərinə alət edən xainlər yığnağı guya onların və ata-analarının halına yanmışlar kimi görünməyə cəhd etməklə suyu bulandırmağa cəhdlər göstərir, gah da siyasi həyasızlıq sindromunun ən yüksək həddinə mübtəla olmaqla ermənidən betər erməniləşirlər.



*Muxtar Nağıyev, YAP Səbail rayon təşkilatının sədri*

### Satqınların bədniyyət əməlləri Azərbaycan xalqının hiddətinə səbəb olub

Beləliklə, özünə real müxalifət deyən, əslində isə çoxdan tarixin zibilliyinə atılmış radikal, dağıdıcı antimilli ünsürlər, anti-Azərbaycan qüvvələrin nökərləri olan AXCP sədri Əli Kərimlinin, Müsavat başqanı Arif Hacılının, ABŞ-da şübhəli dairələrlə oturub-duran Qubad İbadoğlunun, intiriqabazlıqda və pul-paraya hərislikdə ad çıxarmış Gültəkin Hacıbəylinin, öz torpağına qarşı dil uzadan Altay Göyüşovun, eləcə də marginallar - Qənimət Zahidin, Sevinc Osmanqızının və başqalarının son proseslərdə yuyulmamış qaşıq kimi ortalığa çıxmaları Azərbaycan xalqının hiddətinə səbəb olub.

Lakin daha bir fakkt da budur ki, onlar 44 günlük Vətən müharibəsi dönəmində, ondan əvvəlki zamanlarda da öz xislətlərindən əl çəkməyiblər. Yəni bizlər həmin əməllər bu günlərdə Müzəffər Azərbaycan Ordusunun yüksək peşəkarlıqla və misilsiz qəhrəmanlıqla həyata keçirdiyi parlaq qələbə hərbi əməliyyatından sonra da müşahidə etməyə başladıq.

### Hətta həyasızlıqlara qapılaraq, utanıb-qızarmadan Azərbaycanı dövlətini "təcavüzdə" ittiham etməklə öz daxillərindəki çirkablarını aşkarlıqla ortaya qoydular

Hiddət və nifrət yaradan faktorlardan biri də budur ki, yuxarıda adları çəkilən riyakar və rəzil radikal müxalifət ünsürləri əgər əvvəllər özlərinin antimilli əməllərini nisbətən, necə deyərlər, dolayısı yollarla davam etdirirdilərsə, artıq bu dəfə açıq şəkildə ermənilərə və onların ağalarına nökərçilik göstərirlər. Hətta həyasızlıqlara qapılaraq, utanıb-qızarmadan Azərbaycanı dövlətini "təcavüzdə" ittiham etməklə öz daxillərindəki çirkablarını aşkarlıqla ortaya qoydular. Təsəvvür edin ki, hər fürsətdə özlərini gah "millətçi", gah "demokrat", gah da "vətənpərvər mübarizlər" adlandıran həmin antimilli ünsürlər açıq şəkildə iddia edirlər ki, guya Azərbaycan Ermənistanın suveren ərazilərinə hərbi təcavüz edib (???!!!) Həmin fərdlərin bu əməllərini təhlil edərkən istər-istəməz belə bir sual yaranır: onlar həqiqətənmi azərbaycanlı qanı daşıyırlar?! Bunlara xəyanətkar deyil, bəs başqa hansı adı vermək olar?!

Zaman-zaman gah sosial şəbəkə klaviarurası arxasından, gah da icazəsiz aksiyalara yolladığı beyinləri zəhərlənmiş kütlə tərəfindən xalqın hakimiyyətinə qarşı dil uzadan AXCP sədri Əli Kərimli açıq-aşkar iddia edir ki, o Ermənistanın işğalçılıq, təcavüzkar siyasətini dəstəkləyir, hətta Paşinyana, habelə ondan əvvəlki erməni iqtidarlarına olan rəğbətini də gizlətmir!

Məhz bu absurd düşüncələri ilə sağlam ictimai rəyə müdaxilə edərək ortaya kirli, zəhərli ab-hava qatmağa çalışan Əli Kərimli isə söz yox ki, tək deyil. Onun kimi daha bir müxalifət partiyasının "lideri" var - Müsavat partiyasının başqanı Arif Hacılı. Beləliklə, müsavatçı başqanın da sözlərinə diqqət yetirək və nəticə hasil edək. Bu siyasi möhtəkir sual edir ki, "Azərbaycana strateji yüksəkliklər nə üçün lazımdır?". Bax, budur sizlərin daxilindəki "siyasi səviyyə". Məhz sizlər dövləti belə idarə etdiyiniz üçün 1992-1993-cü illərdə Azərbaycana bu gün də ağrısını çəkdiyimiz problemləri iz olaraq qoymusunuz. Bu cür fikrləri yalnız mənsub olduğu xalqa, vətəndaşı olduğu ölkəyə nifrət edən ünsürlər səsləndirə bilərlər və əslində hazırda onların əməllərinin təhlillərini apararkən heç də təəccüb etməyə dəyməz. Onlardan belə əməlləri hər zaman gözləmək olar.

**Və bütün bunlar azmış kimi, canlarını Vətən yolunda qurban vermiş şəhidlərə, onların ailələrinə, qazilərə, Vətən müharibəsi veteranlarına belə təhqirlər yağdırır, ucuz hərəkətləri ilə nə qədər siyasi murdar olduqlarını isbatlayırlar!**

Bu gün Altay Göyüşov kimi əxlaqsız ünsür dəhliz və tarixi torpaqlarımız uğrunda uğrunda canlarını fəda etmiş şəhidlərimizin ruhlarını təhqir edir, xarici kəşfiyyatların oyuncağına çevrilmiş Sevinc Osmanqızı canlı efirdə azərbaycanlıları "xuliqan-bandit" adlandırır, "o yüksəkliklər nəyimizə lazımdır" deyir, Əli Kərimlinin isə trolları sosial şəbəkələrdə kirli ağızlarına gələnləri yazırlar. Avropa ölkələrində erməni ppuluna satılan Tural Sadıqlı və Məhəmməd Mirzəli isə Azərbaycana sanksiyaların tətbiq edilməsini tələb edirlər. Söz yox ki, bütün bunlar bir daha xaricdə Azərbaycanın haqq işinə, milli dövlətçilik maraqlarına qarşı formalaşmış xəyanətkar dəstənin mövcudluğundan xəbər verir və gec, ya da tez onların hər biri hüquq, qanun qarşısında cavab verməli olacaqlar!

Və bütün bunlar azmış kimi, canlarını Vətən yolunda qurban vermiş şəhidlərə, onların ailələrinə, qazilərə, Vətən müharibəsi veteranlarına belə təhqirlər yağdırır, ucuz hərəkətləri ilə nə qədər siyasi murdar olduqlarını isbatlayırlar. Azərbaycan xalqı isə hər zaman ağı-qaradan seçməyi bacarıb və bütün bunlara rəğmən öz dövlətinin, Müzəffər Ali Baş Konandanının, qalib Prezidentinin ətrafında sıx birləşib. Bu reallıq isə həmin mənfur sapı özümüzdən olan baltaların nəfəslərini kəsir, bundan sonra da kəsməyə davam edəcək!

## Son döyüşlərdə şəhid olmuş şəxslərin kredit borcları silinib



Bu ay Ermənistan Silahlı Qüvvələrinin təxribatı nəticəsində şəhid olmuş Azərbaycan hərbçilərinin banklara olan bütün növ kredit öhdəlikləri və onlara hesablanmış faizlər tam silinib. SİA bu barədə "Azərbaycan Banklar Assosiasiyası" (ABA) İctimai Birliyinə istinadən xəbər verir.

Məlumata görə, bu məsələ qurumun Rəyasət Heyətinin sentyabrın 16-da keçirilmiş geniş tərkibdə iclasında müzakirə edilib. İclasda borcların silinməsi məsələsi yekdilliklə təsdiq edilib. "ABA üzvləri bir daha Azərbaycan bank icmasının hər zaman olduğu kimi Prezidentin tapşırıqlarını və Azərbaycan Mərkəzi Bankının tövsiyələrini rəhbər tutaraq Şəhid ailələri və qazilərimizə, eləcə də vətənimizin düşməndən azad edilməsində iştirak edən hərbçilərimizə münasibətdə həssaslıq nümayiş etdirməyə davam edəcəklərini, işğaldan azad edilmiş torpaqlarımızda müasir bank-maliyyə infrastrukturunun qurulmasında bütün resursları ilə iştirak etməyə hazır olduqlarını bildiriblər", - məlumatda qeyd olunub.

ABA 1990-cı ildə kommersiya bankları təsis edib. Əsas məqsəd üzv-təşkilatları təmsil etmək, onların müxtəlif növ işgüzar xidmətlərə olan ehtiyacının ödənilməsinə dəstək göstərmək və fəaliyyətlərini əlaqələndirməkdən ibarətdir. Hazırda 26 bank və 5 qeyri-bank təşkilatı ABA-nın üzvüdür.

## "Dünya ictimaiyyəti Ermənistan rəhbərliyini qınamalıdır"

"Sentyabrın 13-də Laçın, Kəlbəcər, Daşkəsən və Zəngilan rayonları istiqamətində Ermənistanın törətdiyi irimiqyaslı hərbi təxribat bir daha Ermənistan rəhbərliyinin ikiüzlü, revanşist siyasət yürütdüyünü sübuta yetirdi". Bu sözləri SİA-ya açıqlamasında deputat Kamilə Əliyeva deyib.

Onun sözlərinə görə, Cənubi Qafqazda, ümumilikdə regionda sülhün, əmin-amanlığın bərqərar olması bir sıra xarici ölkələrdə fəaliyyət göstərən qüvvələrin marağında deyil: "Xarici qüvvələr regionda gərginliyin artması üçün hər zaman Ermənistandan istifadə edib və bu gün də bu proseslər davam etdirilir. Sadə erməni xalqı illərdir bu çirkin siyasətin qurbanına çevrilmişdir.



Ermənistanın törətdiyi təxribatlar və revanşist cəhdlər insanların sülh, əmin-amanlıq şəraitində yaşamalarına, beynəlxalq hüquq normalarına böyük zərbədir. Beynəlxalq təşkilatlar, dünya ictimaiyyəti Ermənistan rəhbərliyini qınamalı və onlardan bu qeyri insani hərəkətlərə son qoymağı tələb etməlidirlər".

Deputat sözlərinə belə davam edib: "Prezident cənab İlham Əliyevin regionda sülhün yaradılması istiqamətində həyata keçirdiyi işlər, etdiyi çıxışlar, Ermənistanda isə, əksinə, revanşizmin dəstəklənməsi, yeni təxribatlar törədilməsi fikirləri önə çəkilir. Dünya dövlətləri, beynəlxalq təşkilatlar sülhə, əmin-amanlığa, tərəqqiyə çalışan Azərbaycanla terrora, millətçiliyə, təxribatlara, münaqişəyə rəvac verən Ermənistan arasında seçim etməlidir. Azərbaycanın tərəfində duran dövlətlərin sayı nə qədər çox olarsa dünyamızda daimi olaraq sülh və əmin-amanlıq hökm sürər.

Ermənilərin törətdikləri son təxribat bir daha onu göstərir ki, ermənilər minalanmış ərazilərin xəritələrini Azərbaycana vermək fikrində deyillər. Bu isə gələcəkdə Ermənistanın yeni təxribatlar törədə biləcəyini asanlaşdıracaq, Azərbaycan tərəfinin isə özünümüdafiə etməsini çətinləşdirəcək. İşğaldan azad edilmiş ərazilərdə basdırılmış və yeri müəyyənləşdirilməmiş minlərlə mina hələ də qalmaqdadır. Bu da mülki şəxslərin xəsarət almasına, ölümünə səbəb olur. Bu səbəbdən Ermənistan terrorçu dövlət kimi tanınmalıdır. Beynəlxalq təşkilatlar mina xəritələrinin verilməsi üçün Ermənistana təsirli təzyiqlər göstərməlidilər. Bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır. 13 sentyabr təxribatl Azərbaycanın Avropadakı nüfuzuna xələl gətirilməsinə hesablanmış bir addımdır.

Dünyada Ermənistana dəstək verən dövlətlər regionun inkişafını istəmirlər. Azərbaycan kimi güclü bir dövlətin inkişafı regionun tərəqqisinə böyük töhfə verər. 13 sentyabr təxribatı tək Azərbaycanın deyil, regionun digər ölkələrinin də iqtisadi, siyasi inkişafına bir zərbədir. Gələcəkdə hərbi təxribatların törədilməsi müharibəyə də səbəb ola bilər.

Ölkə başçımız cənab İlham Əliyevin "Bu gün dünyada güc amili ön plandadır, beynəlxalq hüququn norma və prinsipləri işləmir " deməsi artıq sübut olunmuş bir həqiqətdir. Prezident cənab İlham Əliyevin ordu quruculuğunda atdığı addımlar ölkəmizin təhlükəsizliyində müstəsna rol oynayır. 13 sentyabr təxribatı ATƏT in Minsk qrupunun fəaliyyətinin bərpasına yönəldilmişdir. Ermənistan və onun havadarları bilməlidirlər ki, Minsk qrupu artıq tarixin arxivinə göndərilmiş bir təşkilatdır. Bu gün bütün dünya Ermənistanda baş alıb gedən hərc-mərcliyin, özbaşınallığın, Azərbaycanda isə xalq-iqtidar birliyinin sarsılmaz olduğunun şahidi oldu".

*Ayşən Vəli*

# Paşinyanın çıxışı “təhrif” edilib..?

*Ermənistan Milli Təhlükəsizlik Xidməti xalqa müraciət edib*

**”...Ermənistan Milli Təhlükəsizlik Xidməti ölkə əhalisinə müraciət edərək bildirib ki, hakimiyyət Azərbaycanla münasibətlərin tənzimlənməsi ilə bağlı heç bir sənəd imzalamayıb və bunu planlaşdırmır”.**



Qeyd edək ki, bundan əvvəl Ermənistanın baş naziri Nikol Paşinyan ölkə parlamentində hökumət saatı zamanı İrəvanın müəyyən sənəd imzalamaq niyyətində olduğunu bildirmişdi. Bu, isə ermənilər arasında narazılıq dalğasına səbəb olmuş və onlar hökumət və parlament binası qarşısında kortəbii etirazlara başlamışdılar.

”...Ermənistanın baş naziri Nikol Paşinyanın çıxışı müxtəlif KİV-lər tərəfindən təhrif edilib və qəsdən saxtalaşdırılıb”. SİA-nın rus saytlarından əldə etdiyi məlumata görə, bunu ermənilərin təhlükəsizlik xidməti yayıb.

Milli Təhlükəsizlik Şurası Ermənistan əhalisini manipulyasiyalara uymamağa çağırıb və İrəvanla Bakı arasında münasibətlərin nizamlanmasına dair heç bir sənədin imzalanmadığını və imzalanmasının planlaşdırılmadığını təsdiqləyib.

Milli Təhlükəsizlik Şurası iddia edir ki, baş nazir parlamentdə yalnız Ermənistanın təhlükəsizliyini, suverenliyini və davamlı sülhünü təmin edəcək sənədi imzalamağa hazır olmasından danışıb. Bunun ardınca hökumət başçısı sosial şəbəkədə canlı yayıma çıxıb, imzalanma, eləcə də Azərbaycanla münasibətlərin tənzimlənməsinə dair sənəd imzalamaq planları ilə bağlı məlumatları təkzib edib.

Baş nazirin sözlərinə görə, bu gün belə bir sənədin layihəsi belə yoxdur. Bundan əvvəl Ermənistan hakimiyyəti Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından (KTMT) ölkənin ərazi bütövlüyünün bərpası üçün hərbi yardım göstərməyi rəsmən xahiş edib.

Ermənistanın baş naziri Nikol Paşinyan bildirib ki, Azərbaycanla sərhəddə Ermənistan tərəfinin atəşə tutulması nəticəsində itkilər 105 nəfərə çatıb.

Bu ərəfədə tərəflər Rusiya Federasiyasının vasitəçiliyi ilə atəşkəs sazişi bağlayıblar. Bununla belə, İrəvan bu gün Ermənistan-Azərbaycan sərhədində hərbi əməliyyatların yenidən başladığını və atəşkəsin cəmi bir günə yaxın davam etdiyini açıqlayıb. Ermənistan Müdafiə Nazirliyinin məlumatına görə, Azərbaycan qüvvələri Cermuk və Verin Şorji istiqamətində irəliləyir.

Eyni zamanda, onların ”artilleriya, minaatan və hücum pilotsuz təyyarələrindən istifadə etdikləri” iddia edilir. Təbii ki, yağı düşməndən başqa nəsə gözləməyə də lüzum yox idi. Necə deyərlər, ilanın ağına da, qarasına da lənət!

Yeri gəlmişkən, Azərbaycan Müdafiə Nazirliyi atəşkəs rejiminin məhz Ermənistan hərbçiləri tərəfindən pozulduğunu bəyan edir.

***Ağasəf Babayev***

## Pelosi 30 illik Ermənistanın işğalçılığı dövründə niyə səsini çıxartmadı?



“ABŞ Nümayəndələr Palatasının spikeri Nensi Pelosinin səfəri seçkiqabağı dövrdə erməni lobbisinin dəstəyini qazanmaq məqsədi daşıyır”. Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Naqif Həmzəyev deyib.

Onun sözlərinə görə, Pelosi ənənəvi ermənipərəst mövqeyi ilə seçilib və onun Ermənistana səfərində bütün diplomatik çərçivələri aşan iddiaları bir daha bunu göstərir: ”ABŞ Konqresində ermənipərəst və erməni lobbisinin təsiri altında olan çoxlu senatorların olduğunu bilirik. Orada orta dövr seçkilər yaxınlaşır və erməni lobbisinin dəstəyini qazanmaq üçün Pelosinin səfəri, etdiyi açıqlamalar onlara lazım idi. Artıq 85 yaşı olan Pelosi hələ də Konqresdə kürsüsünü qoruyub saxlamaq haqqında düşünür. Bu, həmçinin erməni lobbisinin qonorarları və maddi yardımlarına hesablanan açıqlamalardır. Pelosinin qondarma erməni soyqırımı abidəsini ziyarət etməsi, süni göz yaşları tökməsi, regionda baş verən prosesləri düzgün qiymətləndirməməsi dövlətlərə sırımaq istədikləri demokratiya adı altında müstəmləkə və ”parçala, hökmranlıq et” siyasətinin bariz nümunəsini ortaya qoyur. Pelosi regionda baş verən həqiqətləri dərk etmək istəmir, onun səfəri də çətinliklə sülhə doğru gedən proseslərə ağır bir zərbə kimi dəyərləndirilməlidir. Nensi Pelosi 12-14 sentyabr tarixlərində Ermənistanın Azərbaycanla sərhəddə törətdiyi təxribatı qarşı tərəfin mövqeyi baxımından şərh etmək, həqiqətləri gizlətmək əvəzinə ölkəmizin haqlı mövqeyini dəstəkləməli, Ermənistana qarşı təzyiqlərin artırılmasına nail olmalı idi. Əslində onun səfəri və açıqlamalarından belə bir qənaətə gəlmək olar ki, bunlar hamısı böyük bir planın kiçik hissələri idi. Təxribatdan sonra bu səfərin baş tutması öncədən planlaşdırılmışdı, bu da Ermənistana dəstəyin nümayiş etdirilməsi üçün ermənipərəst konqresmenlər və Pelosi üçün bəhanə idi.

Deputat fikirlərinə davam edərək həmçinin qeyd edib ki, Pelosi tərəfindən Ermənistanda səsləndirilən açıqlamalar, söylənilən fikirlər qəbuledilməzdir, ədalətli yanaşma deyil: ”Ermənistanın ərazi bütövlüyünə belə təəssüb göstərən Pelosi bu qədər ədalətlidirsə, 30 illik Ermənistan işğalçılığı dövründə niyə səsini çıxartmadı, Azərbaycana səfər etmədi. Xocalı faciəsini unudanlar, Birinci və İkinci Qarabağ müharibəsi zamanı verilmiş şəhidlərin ruhuna hörmət etməyənlər demokratiyadan, ədalətdən danışmağa haqqı yoxdur. Azərbaycanın haqlı mübarizəsində xalq-ordu-iqtidar birliyi bütün qüvvələrə qarşı qalib gələcək, biz öz haqq yolumuzda daha da irəli gedəcəyik, ərazi bütövlüyümüzü, suverenliyimiz, vətəndaşların təhlükəsizliyini sonuna qədər qoruyacağıq”.

***Arzu Qurbanlı***

## ”Bunu xalqa xəyanətdən başqa bir şey hesab etmirəm”



“Dövlətin milli maraqları üçün əhəmiyyət daşıdığı vaxtlarda vətəni sevən hər bir şəxs siyasi baxışlarını kənara qoyaraq və dövlətin gördüyü haqq işini dəstəkləyərək həmrəylik nümayiş etdirir”. Bu sözləri SİA-ya açıqlamasında deputat Azər Badamov deyib.

Onun sözlərinə görə, 44 günlük Vətən Savaşında ölkəmizdə fəaliyyət göstərən müxalif siyasi partiyalar birləşdilər və siyasi baxışlarını kənarda qoyaraq Ali Baş Komandanın Dəmir yumruğuna çevrildilər: ”12 sentyabrda baş vermiş erməni təxribatına qarşı mübarizə əməliyyatları zamanı da bu həmrəylik bir daha ifadə olundu və Müzəffər Ordumuzun yeni zəfər salnaməsinin yazılmasına dəstək verdilər. Amma radikal mövqedə dayanan AXCP və Müsavat partiyası həmişə olduğu kimi yenə də gördüyümüz haqq işimizdən nöqsanlar tutmağa və məsləhətlər verməklə özünü hamıdan ağıllı göstərməyə çalışdı”.

Deputat sözlərinə belə davam edib: ”Əslində onların bu hərəkətləri xaricdən almış sifarişlərin icrasından başqa bir şey deyil. Ali Baş Komandanın rəhbərliyi altında Müzəffər Ordumuz silaha sarılaraq qısa zaman kəsiyində sərhəd boyu yerləşdirilərək ölkəmizə qarşı davamlı təxribatlar törədilən düşmənin legitim hərbi hədəflərini və canlı qüvvəsini məhv edərək 53 strateji yüksəkliyi işğaldan azad etmişdir.

İndi Ermənistanla sərhəddə demək olar ki, bütün hakim yüksəkliklər ordumuzun nəzarəti altındadır. Hətta Ermənistanın kommunikasiya infrastrukturuna da nəzarəti əlimizə almışıq. Yəni, 44 günlük Vətən müharibəsində təmin etdiyi qələbədən sonra rəşadətli ordumuzun son əməliyyatlarla qazandırdığı üstünlük yeni bir qələbədir. Düzdür, hərbi əməliyyatlar zamanı 71 şəhid verdik. Şəhidlərimizə Allah rəhmət eləsin və yaralanmış əsgərlərimizə qısa bir zamanda öz sağlamlıqlarına qovuşmasını diləyirəm. Amma belə böyük bir qəhrəmanlıq göstərmiş şəhidlərin adından öz imicinə necə istifadə etmək olar? Radikal müxalifətin belə ucuz hərəkətləri ancaq ermənilərdən aldığı sifarişin təzahürüdür və xalqa xəyanətdən başqa bir şey hesab etmirəm. Təəssüf ki, radikal müxalifət 30 ildir yerində sayır və inkişaf etmir”.

***Ayşən Vəli***

## Baş Prokurorluq daha bir sosial şəbəkə istifadəçisinə xəbərdarlıq etdi

**Azərbaycan Silahlı Qüvvələri tərəfindən ölkəmizin ərazi bütövlüyü və suverenliyinə qarşı törədilən erməni təxribatlarının qarşısının qətiyyətlə alındığı həssas bir dönəmdə müxtəlif sosial şəbəkələrdə Azərbaycan ordusu və hərbçilərinin nüfuzdan salınması istiqamətində təxribat xarakterli müxtəlif məlumatların paylaşılması müşahidə edilməkdədir.**




Baş Prokurorluğun Mətbuat Xidmətindən SİA-ya verilən məlumata görə, bu qəbildən olan informasiyaların təhlili zamanı Xasməmmədov Taleh Vidadi oğlunun ”Facebook” sosial şəbəkəsindəki şəxsi hesabında 16.09.2022-ci il tarixdə paylaşdığı Ermənistanla sərhəddə baş vermiş silahlı təxribatın qarşının alınması zamanı cari ilin 13 sentyabr tarixində şəhid olmuş, əslən İmişli rayonundan olan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularından birinin atasının oğlunun xidmətə qəbul edilməsi üçün 3000 manat pul verməsi barədə paylaşımı müəyyən edilmişdir. Azərbaycan Respublikasının Hərbi Prokurorluğu tərəfindən aparılmış araşdırma zamanı Taleh Xasməmmədov qeyd edilən məlumatı sosial şəbəkədə oxuyaraq öz hesabında paylaşdığını, həqiqətdə isə belə adam tanımadığını,əlavə məlumatının olmadığını bildirib.

Eyni zamanda, 2022-ci ilin sentyabr ayında Azərbaycan Silahlı Qüvvələrinin sıralarından şəhid olmuş hərbi qulluqçulardan İmişli rayonunda yaşayan və ya qeydiyyatda olan hərbi qulluqçunun olmadığı müəyyən edilib.

Taleh Xasməmmədovun Azərbaycan ordusu ilə bağlı dəqiqləşdirilməmiş informasiyaları yaymasının qanunsuz xarakteri diqqətinə çatdırılaraq, ona qanun pozuntusuna yol verməkdən çəkindirmək haqqında xəbərdarlıq elan edilib.

Həmçinin, Hərbi Prokurorluqda şəhid Səbuhi Əhmədovun qardaşı Əhmədov Sənan Fuad oğlunun sosial şəbəkələrdə yayılmış 14-15 sentyabr 2022-ci il tarixli video müraciətləri ilə əlaqədar araşdırma davam etdirilir, bu barədə ictimaiyyətə əlavə məlumat veriləcəkdir.

# "Əsrin Müqaviləsi"- Azərbaycanın strateji inkişaf konsepsiyasının təməli

**Ümummilli lider Heydər Əliyevin dünyanın inkişaf etmiş dövlətləri ilə imzaladığı bu müqavilə ilə ölkəmizin davamlı və sürətli inkişaf tendensiyasının əsasını qoydu**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği: dövlət müstəqilliyimizin bərpasının 30-cu ili- Azərbaycan dövlətçiliyi müasir mərhələdə" istiqaməti çərçivəsində hazırlanıb.

Sentyabrın 20-də "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında" Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə dünyanın tanınmış neft şirkətləri arasında sazişin imzalanmasının ildönümüdür.Xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi altında hazırlanmış, sonradan isə beynəlxalq aləmdə yüksək qiymətləndirilmiş və haqlı olaraq "Əsrin müqaviləsi" adını qazanmış bu saziş respublikamızın salnaməsinə qızıl hərflərlə həkk olunub və Heydər Əliyevin neft strategiyasının şanlı səhifəsinə çevrilib. Məhz bu tarixi addımla müstəqilliyini bir daha sübut edən Azərbaycan öz sərvətlərinə tam sahib olduğunu bütün dünyaya nümayiş etdirib.

Milli sərvətlərimizdən müstəqil dövlətimizin və xalqımızın rifahı naminə istifadə olunması, on illərlə imperiya maraqlarına xidmət etmiş karbohidrogen ehtiyatlarının qüdrətli və inkişaf etmiş Azərbaycanın formalaşması üçün istismarı, bu məqsədlə xarici investisiyaların cəlb olunması üçün cəsarətli siyasi addımlar atılıb.

Elə ilk günlərdən o vaxt ARDNŞ-in birinci vitse-prezidenti, Milli Məclisin deputatı İlham Əliyev danışıqlar prosesinə cəlb edilib, yeni neft strategiyasının hazırlanmasının və uğurla həyata keçirilməsinin ən fəal iştirakçısı olub. Bu saysız-hesabsız görüş və danışıqlarda, ilk növbədə Azərbaycan xalqının və dövlətinin maraqları əsas götürülürdü. Bütün çətinliklərə baxmayaraq, müqavilə Azərbaycanın milli mənafelərinə uyğun hazırlandı.

Təxminən 400 səhifə həcmində və 4 dildə hazırlanmış razılaşma öz tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə "Əsrin Müqaviləsi" adını alıb. "Əsrin Müqaviləsi"ndə dünyanın 8 ölkəsinin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) 13 ən məşhur neft şirkəti (Amoko, bp, MakDermott, Yunokal, ARDNŞ, LUKoyl, Statoyl, Ekson, Türkiyə Petrolları, Penzoyl, İtoçu, Remko, Delta) iştirak edir. Bununla da müstəqil dövlətimizin neft strategiyası və doktrinası uğurla həyata keçirilməyə başladı.

"Əsrin Müqaviləsi"nin ilk günlərindən Azərbaycan Beynəlxalq Əməliyyat şirkəti yaradıldı və təsdiq olunmuş vahid proqram üzrə ARDNŞ ilə birgə işlərə başlandı. Bu, dünyanın 19 ölkəsinin 41 neft şirkəti ilə 30-dək sazişin imzalanması üçün yol açdı.

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə bağlanmış bu müqavilə Azərbaycan xalqının rifahının yaxşılaşdırılmasında yeni dövrün əsasını qoydu. "Əsrin müqaviləsi"nin imzalanması ilə müstəqil Azərbaycan dövlətinin tarixində milli neft strategiyası həyata keçirilməyə başladı. Məhz bu müqavilədən sonra dünya dövlətlərinin Azərbaycan iqtisadiyyatına marağı artdı, ölkəmizin beynəlxalq əlaqələrinin genişlənməsinə güclü təkan verildi.

Müqavilənin imzalanması ilə xalqımızın öz sərvətləri üzərində sahiblik hüququ bir daha təsdiq edildi, eyni zamanda, Azərbaycan iqtisadiyyatının dünyaya açıq olması nümayiş etdirildi. "Əsrin Müqaviləsi" Azərbaycanın bir dövlət kimi tanınmasına, dünya iqtisadi sisteminə qoşulmasına və beynəlxalq aləmdə mövqeyinin möhkəmləndirilməsinə şərait yaratdı. Beynəlxalq neft sazişlərinin imzalanması ilə neft sazişlərində iştirak edən dövlətlərlə səmərəli və qarşılıqlı faydalı əməkdaşlığın inkişafı üçün əsaslı təməl quruldu, ölkənin geosiyasi mövqeyinin daha da möhkəmlənməsi, dünya iqtisadiyyatına inteqrasiya prosesinin sürətlənməsi üçün şərait yarandı.






Neft strategiyasının mühüm tərkib hissəsini xarici şirkətlərlə birlikdə hasil olunan neftin və qazın nəqlini və xarici bazarlara ixracını təmin edəcək çoxvariantlı boru nəqliyyat infrastrukturunun yaradılması təşkil edir. Neft strategiyasının həyata keçirilməsinin ilk illərində əvvəlcə Bakı-Novorossiysk və Bakı-Supsa boru kəmərləri yenidən quruldu, daha sonra neftin və qazın etibarlı və irimiqyaslı ixracını təmin etmək məqsədi ilə Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac və Bakı-Tbilisi-Ərzurum qaz ixrac boru kəmərləri tikilərək, istismara verildi.

Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum əsas ixrac boru kəmərlərinin fəaliyyət göstərməsi Azərbaycan, Gürcüstan, Türkiyə ilə Mərkəzi Asiya regionu arasında idxal-ixrac münasibətlərinin və iqtisadi əlaqələrin inkişafına təkan verildi.

"Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokunda mövcud ehtiyatların son qiymətləndirilməsinə görə, burada ilkin geoloji neft ehtiyatları 2,2 milyard tondur. Yataqlar blokunda səmt qazı üzrə geoloji ehtiyatlar isə 632 milyard kubmetrə bərabərdir.

Milli neft strategiyasının uğurla reallaşması şəraitində karbohidrogen ehtiyatlarının xarici şirkətlərlə birgə istismarı və ixracı ildən-ilə genişlənir və bunun sayəsində dövlətimizin valyuta daxilolmaları sürətlə artmaqdadır. Hazırda Azərbaycan iqtisadi inkişaf tempinə görə dünyada birincidir, ölkəmiz əhəmiyyətli regional və beynəlxalq layihələrin təşəbbüskarı və iştirakçısıdır. Dünya iqtisadi sisteminə inteqrasiya neft gəlirlərinin idarə edilməsi sahəsində ən yaxşı təcrübələrin tətbiqinə yol açıb.

Azərbaycana daxil olan böyük neft gəlirlərinin toplanması və məqsədyönlü şəkildə istifadəsini təmin etmək məqsədi ilə 1999-cu ildə ulu öndər Heydər Əliyevin Fərmanı ilə Dövlət Neft Fondu yaradıldı. Neft Fondunun təsis olunması ilə neft sərvətlərinin nəsillər arasında ədalətli bölgüsü, onların səmərəli və məqsədyönlü idarə edilməsi üçün əsaslı təminat yaradıldı. Yaradılarkən 271 milyon ABŞ dollarına bərabər olan Dövlət Neft Fondunun aktivlərinin həcmi hazırda 45 milyard ABŞ dollarını keçib. Bu vəsait ildən-ilə artır.

Dövlətin artan maliyyə imkanları hesabına ölkədə mühüm investisiya, o cümlədən regional proqramların və infrastruktur layihələrin maliyyələşdirilməsinə şərait yaranıb. Son illər Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən dövlət proqramları çərçivəsində ölkənin bütün bölgələrində və Bakı şəhərində müxtəlif infrastruktur layihələri həyata keçirilir, təhsil, sosial və digər obyektlərin inşası uğurla davam etdirilir.

Ölkənin maliyyə potensialının artması nəticəsində qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirilməsi üçün əlverişli zəmin yaranıb. Bununla əlaqədar Prezident İlham Əliyevin həyata keçirdiyi iqtisadi kursun prioritet istiqaməti olaraq Azərbaycanda neft sektoru ilə bərabər qeyri-neft sektorunun inkişaf etdirilməsinə bu gün xüsusi diqqət yetirilir. Bu məqsədlə artan neft gəlirləri hesabına ölkədə mühüm infrastruktur və sosialyönümlü layihələrin maliyyələşdirilməsi həyata keçirilir.

Azərbaycanın hər bir bölgəsində yeni, müasir tələblərə cavab verən infrastruktur yaradılır, elektrik stansiyaları tikilir, qaz və su kəmərləri çəkilir, yollar salınır. İnfrastrukturun yeniləşdirilməsi və inkişaf etdirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər eyni zamanda insanların rahatlığı, firavan yaşayışı üçün həyata keçirilən sosialyönümlü tədbirlərin mühüm tərkib hissəsidir.

Artan neft gəlirləri hesabına, ilk növbədə sosial siyasət sayəsində, o cümlədən az təminatlı təbəqələrin, qaçqın və məcburi köçkünlərin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində də saysız tədbirlər həyata keçirilir.

Bu məqsədlə dövlətimizin başçısı tərəfindən bir neçə Sərəncam və Dövlət Proqramı qəbul edilib və bu qərarlara uyğun olaraq qaçqın və məcburi köçkünlər üçün Azərbaycanın müxtəlif ərazilərində yaşayış qəsəbələri tikilib, 2007-ci ilin sonunda isə Sabirabad rayonunda yerləşən son Qalaqayın çadır düşərgəsi ləğv edilmiş və burada məskunlaşmış məcburi köçkünlər yeni qəsəbələrə köçürülüb.

Ölkənin artan maliyyə imkanları hesabına, beynəlxalq əhəmiyyətli strateji infrastruktur layihələri də uğurla həyata keçirilir. Bu layihələr təkcə Azərbaycanın deyil, bütövlükdə regionun nəqliyyat infrastrukturunun modernləşdirilməsinə şərait yaradır.

Bu layihələrdən biri olan Bakı-Tbilisi-Qars yeni dəmir yolunun inşası Azərbaycanın regionda siyasi nüfuzunun güclənməsinə təkan verməklə bərabər, respublikamızın Qərbə doğru inteqrasiyasına, Azərbaycan, Gürcüstan və Türkiyə arasında siyasi və iqtisadi münasibətlərin inkişafına şərait yaradacaq. Bakı-Tbilisi-Qars yeni dəmir yolu regional əhəmiyyətə malik olmaqla bərabər, Asiya ilə Avropanı birləşdirən nəqliyyat dəhlizinə çevriləcək.

Neftdən əldə edilən gəlirlər hesabına bu gün ölkənin kadr potensialının artırılması istiqamətində də mühüm tədbirlər həyata keçirilir. Bu tədbirlərdən biri kimi, Prezident İlham Əliyev tərəfindən təsdiq edilmiş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın reallaşması nəticəsində ölkəmizdə müasir tələblərə cavab verən kadr potensialının yaradılmasına, gənc nəslin təhsil səviyyəsinin artırılmasına və beynəlxalq səviyyəyə çatdırılmasına şərait yaranıb. Bu proqramın, ilk növbədə neft gəlirləri hesabına maliyyələşdirilməsi "qara qızılın insan kapitalına çevrilməsi" ideyasının reallaşmasına doğru atılmış strateji bir addımdır.

"Əsrin müqaviləsi" ilə əsası qoyulmuş milli neft strategiyasının uğurlarının nəticəsi olaraq Azərbaycanın regionun lider dövləti, eləcə də regional və qlobal iqtisadi layihələrin aparıcı iştirakçılarından biri kimi tanınmasına şərait yaranıb. Bu gün ölkəmizdə əldə edilən bütün iqtisadi uğurların başlanğıcında məhz milli neft strategiyası, bu strategiyanın ilk şanlı səhifəsini və təməl daşını isə ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu "Əsrin müqaviləsi" təşkil edir.

Əminliklə demək olar ki, bu güclü təməl üzərində ölkə iqtisadiyyatı bundan sonra daha sürətlə inkişaf edəcək, xalqımızın rifahı ildən-ilə daha da yaxşılaşacaq, Azərbaycan qüdrətli dövlətə çevriləcək.

***Elçin***

SON SƏHİFƏ

# SƏS

20 sentyabr
2022-ci il

## BİLİRSİNİZMİ?

İnsanlar oksigensiz 3 dəqiqə, susuz 3 gün və yemək yemədən 3 həftə yaşaya bilər.

***

Bir insan gündə ən az 500 litr oksigen istifadə edir.

***

Əgər bir sözü xatırlamaqda çətinlik çəksəniz, yumruğunuzu sıxın. O zaman beyinin fəaliyyəti daha da artır və yaddaşı işə salmağa kömək edir.

***

Dəniz atı dünyanın ən sədaqətli canlısıdır. Çünki həyat yoldaşı öldükdən qısa bir müddət sonra o da ölür.

***

İnsan ildə ən az 1460 ədəd yuxu görür.

***

Qütb ayıları isti və nəmli mühitdə qaldıqları zaman kürklərinin rəngi yaşıla çevrilir.



# “Kondisionerlər uşaqların düşməni deyil”

”Kondisionerlər uşaqların düşməni deyil. Əgər gərəkli önləmləri alsanız ondan etibarlı şəkildə istifadə edə bilərsiniz. Kondisioner xüsusən isti yay aylarında bədəni istiyə həssas körpə üçün əvəzedilməzdir. Uşaq dərisi mayeni itirməyə daha meyilli olduğu üçün isti mühit daha pis təsir edir”. Bu sözləri SİA-ya açıqlamasında mütəxəssis pediatr Yüksel Hüseynli deyib.

Onun sözlərinə görə, uşaqlar üçün ideal temperatur 22 dərəcə olsa da, olduqları mühitin gündüz 21-24, gecə 19-21 dərəcə arası olmağı lazımdır: ”Uşaqlar temperatur dəyişikliklərinə həssas olurlar. Temperaturun çox yüksək və ya çox aşağı olmağı narahatlıq, yuxudan tez-tez oyanma və tez-tez xəstələnmələrinə səbəb ola bilər. Ev içi, maşın və çöl havası arası fərq 10 dərəcədən çox olmamalıdır. Kəskin fərq uşaqda müəyyən narahatlıqlara səbəb olur.

Eyni zamanda olduğu mühitdə kondisioner birbaşa uşağın üzünə vurmamalı, yatırsa üzəri nazik örtüklə örtülməlidir”.

Yüksel Hüseynli sözlərinə belə davam edib: ”Kondisionerdəki filterlər tez-tez dəyişdirilməlidir. Əks halda nəmişlik səbəbi ilə filterlərə müxtəlif mikroorqanizmalar, kif göbələkləri toplanır ki, bu bütün uşaqlar üçün,xüsusən allergik uşaqlar üçün ziyandır.

Bronxial astmalı, allergik rinitli və eqzemalı uşaqlar daha böyük risk altındadır. Lakin polen allergiyası olan uşaqlar yaz-yay aylarında həssas olduqları üçün pəncərələri bağlı saxlayıb, kondisionerlə ideal otaq temperaturu yaratmaq olar. Qeyd etdiyim kimi bu zaman filterlərin təmizliyinə fikir verməkn lazımdır. Eyni zamanda otağın nəmlik dərəcəsinə fikir verilməli, nəm ölçən cihazlar otağa qoyulmalıdır. Otaqda nəmişlik 65 faiz olmağı ideal hesab olunur. Nəmişliyin 35-40 faizə düşməsi otaq havasını qurudur ki, bu da toz və gənələrin, kiflərin miqdarını artırır.

Beləliklə, doğru istifadə edilərsə, istifadə qaydalarına əməl olunub temperatur və nəmişliyə nəzarət olunarsa kondisionerdən faydalı şəkildə faydalanmaq olar”.

***Ayşən Vəli***



# Super Liqanın ən yaxşısı Muslera!

**Bu mövsüm futbol üzrə Türkiyə Super Liqasında xüsusilə qapıçı performansları çox müzakirə olunur. SİA xəbər verir ki, araşdırmalarda Musleranın ən yaxşı mövqedə olduğu görülür. Bu mövsüm Muslera 83 faiz qənaətə nail olub. Nəhayət, ”İstanbulspor” matçında çox müzakirə olunan beşiktaşlı Ersin forma baxımından pis vəziyyətdədi. Ersinin qənaət faizi 50% olaraq qalır. Bu həftəyə qədər Altay ”Fənərbağça”da 73%, ”Trabzonspor”da isə Uğurcan 53% toplayıb.**

Ötən mövsüm ”Trabzonspor”un çempionluğunda mühüm rol oynayan Uğurcanın geriləməsi də diqqət çəkir. Fernando Muslera, şübhəsiz ki, bu həftəyə qədər qalasında ən etibarlı oyunçu idi. Nando birbaşa Aslanın xallarına töhfə verib.

## Yol qəzalarında daha 3 nəfər ölüb



Daxili İşlər Nazirliyi (DİN) həftəsonu baş verən yol qəzaları ilə bağlı statistik məlumat yayıb. DİN-in mətbuat xidmətindən SİA-ya verilən xəbərə görə, respublikanın avtomobil yollarında iki gündə ölümlə nəticələnən 3 yol-nəqliyyat hadisəsi baş verib. Nəticədə 3 nəfər ölüb.

# Zabratda “VAZ-2106” oğurlanıb




**Sabunçu Rayon Polis İdarəsinin 15-ci polis bölməsinə sentyabrın 14-nə keçən gecə Zabrat qəsəbəsi ərazisindən qəsəbə sakini E.Əhmədova məxsus ”VAZ-2106” markalı avtomobilin qaçırılması barədə məlumat daxil olub.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində nəqliyyat vasitəsini qaçırmaqda şübhəli bilinən Sabirabad rayon sakini, əvvəllər məhkum olunmuş Fuad Quliyev müəyyən olunaraq saxlanılıb. Faktla bağlı araşdırma aparılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**